RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 165 (8481) CÜMƏ, 21 avqust 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyevin qlobal layihələri dünyada ölkəmizin nüfuzunu yüksəldir

Qlobal böhranın getdikcə daha da dərinləşməsi postpandemiya dövründə ölkələrin iqtisadi durumunun kifayət qədər gərginləşəcəyini deməyə əsas verir. Beynəlxalq Valyuta Fondunun yaydığı məlumatda da qeyd edilir ki, dünya iqtisadiyyatı gözlənildiyindən daha ləng bərpa olunur və dərin qeyri-müəyyənlik hökm sürür. Pandemiyanın yaratdığı iqtisadi şoklar fonunda bu il dünya iqtisadiyyatının 5 faiz azalacağı qeyd edilir.

Göründüyü kimi, bəşəriyyəti çətin sınaq qarşısında qoyan pandemiya makroiqtisadi siyasətdən tutmuş qlobal ticarətədək bütün sahələrə mənfi təsirini göstərməklə böyük problemlər yaradır.

## Böhran şəraitində beynəlxalq yükdaşımaların dəyişən istiqaməti

Ümumbəşəri bəlaya çevrilmiş koronavirus pandemiyası ilə mübarizə tədbirləri çərçivəsində sərhədlərin bağlanması iqtisadi fəallığı minimuma endirsə də, bəzi ölkələr bu şəraitdə də beynəlxalq ticari əlaqələri fonunda yükdaşıma proseslərini fasiləsiz olaraq davam etdirirlər. Bu da əlbəttə ki, həmin ölkələrə iqtisadi dvidendlər gətirir.

Pandemiya səbəbindən yük axınlarının özünün konyukturasında mühüm dəyişikliklər baş verib. Belə ki, pandemiya yük axınlarını dəmir yolu nəqliyyatına yönləndirməklə bu sektora yeni perspektivlər gətirib. Nəticədə dəmir yolu nəqliyyatı ilə yükdaşımalara tələbat artıb. Həm də ona görə ki, bu nəqliyyat növü ilə yükdaşımalar daha ucuz başa gəlir.

Avrasiyanın ən etibarlı, əlverişli nəqliyyat-tranzit qovşaqlarından birinə çevrilən Azərbaycan da bu prosesdə üzərinə düşdüyü vəzifəni uğurla reallaşdırır. Nəhəng nəqliyyat, logistik layihələrin reallaşmasında, onlarca ölkəni birləşdirən “Şərq-Qərb”, “Şimal-Cənub” və “Şimal-Qərb” nəqliyyat dəhlizlərinin yaradılmasında böyük rol oynayan Azərbaycan ərazisi vasitəsilə maneəsiz tranzit daşımalarını təmin edir.

## Avrasiyanın mühüm nəqliyyat qovşağına çevrilən Azərbaycan böhran şəraitində də maneəsiz tranzit daşımalarını təmin edir

Pandemiyanın mənfi təsirlərinə baxmayaraq, qlobal miqyaslı təşəbbüsləri ilə Azərbaycanı Avrasiyanın mühüm logistik mərkəzlərindən birinə çevirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə tranzit yüklərin daşınması üçün əlavə tədbirlər görülüb. Ölkəmizin tranzit potensialının və yük axınlarının artırılması məqsədilə hələ pandemiyadan öncəki dövrdə daşımalara və tranzit keçid haqlarına əlavə güzəştlər də tətbiq edilib.

### Azərbaycan tranzit keçid haqlarına əlavə güzəştlər tətbiq edib

Bu ilin aprel ayının 10-da cənab İlham Əliyevin təşəbbüsü ilə videokonfrans formatında keçirilən Türk Şurasının fövqəladə Zirvə görüşünün yekun bəyannaməsində də pandemiya dövründə ölkələr arasında yükdaşımaların davamlılığının təmin edilməsi üçün müvafiq addımların atılmasının vacibliyi qeyd olunmuşdu. Eyni zamanda yük nəqliyyat vasitələrinin sərhədlərdən keçmə prosedurlarının sadələşdirilməsi və bu sahədə yaranan problemlər barədə məlumat mübadiləsinin aparılması zəruri hesab edilmişdi.

May ayının 4-də Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə təşkilatın Təmas Qrupu formatında keçirilən Zirvə görüşündə də dövlət başçısı pandemiya şəraitində ölkələr arasında ticarətin açıq saxlanılmasının və beynəlxalq yükdaşımaların fasiləsiz həyata keçirilməsinin vacibliyini bildirmişdi.

Ardı 3-cü səh.

## Azərbaycan Respublikasının Ağsu və Şamaxı rayonlarında baş vermiş təbii fəlakətin nəticələrinin aradan qaldırılması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, təbii fəlakətin nəticələrinin aradan qaldırılması işlərinin davam etdirilməsi məqsədilə **qərara alıram:**

1. Zəlzələlər nəticəsində Ağsu və Şamaxı rayonlarında yaşayış evlərinə dəymiş ziyanın aradan qaldırılması işlərinin davam etdirilməsi məqsədilə həmin evlərin təmiri üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Ağsu və Şamaxı rayon icra hakimiyyətlərinin hər birinə 3,0 (üç) milyon manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 avqust 2020-ci il*

## Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası Məhərrəm ayı ilə bağlı müraciət yayıb

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurası qarşıdan gələn Məhərrəm ayı ilə bağlı müraciət yayıb. QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə müraciətdə deyilir:

“Möhtərəm mömin qardaş və bacılarımız.

Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və səlahiyyətli nümayəndələri nəzərinizə çatdırır ki, Hicri-qəməri təqvimi ilə 1441-ci il başa çatır, yeni 1442-ci ilin başlanğıcı - Məhərrəm ayının 1-i Miladi təqvimlə 2020-ci il avqust ayının 21-nə təsadüf edir.

Məhərrəm ayı Hicri-qəməri ilinin ayları arasında müqəddəs aylardan biridir. Bu ay Həzrət Peyğəmbərin (s) buyurduğu kimi, müharibələrin qadağan olunduğu aylardan biri olmasına baxmayaraq, Aşura günü İmam Hüseyn əleyhissəlam tərəfdarlarının haqq uğrunda şəhadətə yetişdiyi gün kimi Əhli-Beyt (ə) tarixinə kədərli, lakin, eyni zamanda, inanclı insanlara qürur bəxş edən bir məqam kimi daxil olub. Kərbəla faciəsinin nəsillərin yaddaşında yaşaması, İmam Hüseyn əleyhissəlamın həyat və mübarizəsinin yad edilməsi olduqca böyük mənəvi-əxlaqi əhəmiyyət kəsb edir. İmam Hüseyn əleyhissəlamın əzadarlığı iman sevgisinin, əqidəyə sadiqliyin, vətən uğrunda şəhadətə hazırlıq ruhunun təcəssümüdür.

Möhtərəm qardaş və bacılarımız, Məhərrəm ayının 10-u - Aşura günü 2020-ci il avqust ayının 30-na təsadüf edir. Bu münasibətlə bütün dindarlarımıza dərin hüznlə başsağlığı verir, Allah-Təaladan səbr, məğfirət diləyirik.

Ardı 2-ci səh.



## «Şəfəq-Asiman» blokunda ilk kəşfiyyat quyusu qazılır

### Qazma işləri strukturun ehtiyatlarının dəqiqləşməsinə imkan verəcək

Xəzərin Azərbaycan sektorundakı “Şəfəq-Asiman” blokunda ilk kəşfiyyat quyusunun qazılması davam edir. Qazma işlərinə bu il yanvar ayının 13-də başlanıb. Quyunun ümumi dərinliyinin 7000 metrə çatacağı planlaşdırılıb. Hazırda qazma 2500 metr dərinlikdə gedir.

Quyu layihə dərinliyinə çatdıqdan sonra alınmış məlumatlar təhlil ediləcək və nəticələr uğurlu olarsa, onların təsdiqlənməsi üçün qiymətləndirmə proqramı həyata keçirilə bilər.

“Şəfəq-Asiman” bloku Bakıdan cənub-şərq istiqamətində təxminən 125 kilometr məsafədə yerləşir. Blok 1100 kvadratkilometrə yaxın sahəni əhatə edir və ərazisində suyun dərinliyi 650-800 metr arasında dəyişir. “Şəfəq-Asiman” strukturunu “Şahdəniz” yatağından 60 kilometr və Səngəçal terminalından 145 kilometr məsafə ayırır.

“Şəfəq-Asiman”ın birgə kəşfiyyatı və işlənməsi üçün Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) BP və SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) arasında 2010-cu ilin oktyabr ayında Bakıda imzalanıb. Sazişə əsasən, bu şirkətlər layihədə iştirak paylarını tən yarıya bölürlər, operator BP-dir.

HPBS Azərbaycan Respublikası Milli Məclisi tərəfindən 2011-ci ildə ratifikasiya edilib.

Ardı 5-ci səh.

## «Beyin mərkəzi» dövlətçiliyin inkişafında aparıcı rol oynayır



### Azərbaycanın innovativ təcrübəsi dünya ölkələrinə nümunə göstərilir

“Think tanks” - “Beyin mərkəzi” dünyada kifayət qədər geniş yaylmış termindir və belə mərkəzlər Qərbdə ötən əsrin 60-cı illərindən fəaliyyət göstərirlər. Siyasi elmi-tədqiqat mərkəzi olan bu qurumlar bir neçə məqsəd üçün yaradılır.

Əsas qrupa aid mərkəzlərin vəzifəsi dövlət siyasətinin təyin olunmuş strategiyasına, prioritetlərin və alternativ siyasi təkliflərin hazırlanmasına dəstək vermək, seçilmiş siyasi kursun hərtərəfli araşdırılıb tədqiq olunmasını təmin etməkdir. Artıq Azərbaycanda da belə mərkəzlər xeyli vaxtdır ki, fəaliyyət göstərir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan struktur islahatları çərçivəsində yaradılmış və uğurla fəaliyyət göstərən belə qurumlardan biri də İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzidir (İİTKM). Bu mərkəzin analitikləri dövlət proqramları və strategiyalarının monitorinqini və qiymətləndirilməsini aparır, islahat təkliflərinin verilməsi və kommunikasiya üçün materialların hazırlanmasına yardım göstərir.

Ardı 3-cü səh.

## Ermənistanda sosial fəlakət böyüyür

### İşğalçı ölkədə əmək qabiliyyətli əhalinin böyük əksəriyyəti xaricə üz tutur

Ermənistan regionda koronavirusla bağlı ən dramatik vəziyyətin hökm sürdüyü ölkədir. Əslində, dünya miqyasında da Ermənistan ən pis durumda olanlar sırasındadır. Rəsmi rəqəmlərə əsasən, ölkədə virusa yoluxanların sayı 42 mini keçib. Bugünədək Ermənistanda 800-dən yuxarı insan pandemiyanın qurbanı olub.

Pandemiya fonunda sosial-iqtisadi çətinliklər məngənəsində boğulan Ermənistanda demoqrafiya problemi də artaraq daha gərgin mərhələsinə qədəm qoymaqdadır. Görülən bütün tədbirlərə baxmayaraq, ölkədə əhalinin sayı sürətlə azalmaqda davam edir, imkan düşdükcə xaricə köçənlər artır. Əhalinin artım səviyyəsinin get-gedə aşağı düşməsi isə erməni sosioloqlarının hakimiyyətə ünvanlanmış xəbərdarlıqlarının çoxalmasına səbəb olub.

Ardı 2-ci səh.

## Azərbaycan virusla mübarizədə irəlidədir

### Ölkəmiz qlobal pandemiyaya qarşı ən ciddi tədbirlər görən dövlətlər sırasındadır

Yeni tip koronavirus - COVID-19 bütün dünyanın qlobal problemi olmaqda davam edir. Bəşəriyyət bu ilin səkkizinci ayını da pandemiya ilə mübarizə aparmaqla başa vurmaqdadır. Bu müddət ərzində planetimizin 22 milyondan çox sakini koronavirusa yoluxub, 779 mindən artıq insan isə bu xəstəlik səbəbindən həyatını itirib. Müxtəlif mübarizə üsullarına, profilaktik tədbirlərə baxmayaraq, hələ də virusu tamamilə ram etmək mümkün olmayıb.

Azərbaycan dünyanı bürüyən virusa qarşı mübarizəyə elə ilk gündən dövlətin bütün resurslarını səfərbər etməyə başlayıb. Qlobal təhlükə hələ ölkəmizin sərhədlərinə yaxınlaşmamış dövlətimiz mühüm qabaqlayıcı tədbirlərə start verərək, vətəndaşların sağlamlığının qorunmasına yönəlik lazımi addımlar atdı. Dövlətin bütün potensialı bu infeksiya ilə mübarizəyə yönəldi, mümkün effektiv, zəruri tədbirlər ardıcıllıqla və planlı şəkildə həyata keçirildi.

Ardı 4-ci səh.

## C.F.Cəfərovun Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Ceyhun Fərrux oğlu Cəfərov Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 avqust 2020-ci il*

## Azərbaycanın Xarici İşlər naziri ilə Böyük Britaniyanın dövlət naziri arasında telefon danışığı olub

Avqustun 20-də Xarici İşlər naziri Ceyhun Bayramovun Böyük Britaniyanın Avropa Qonşuluğu və Amerikalar üzrə dövlət naziri xanım Vendi Morton ilə telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, dövlət naziri Vendi Morton Ceyhun Bayramovu Xarici İşlər naziri təyin olunması münasibətilə təbrik edib.

Tərəflər ikitərəfli əməkdaşlıq gündəliyinin bir sıra istiqamətləri üzrə fikir mübadiləsi aparıb, qarşılıqlı əməkdaşlıq əlaqələrinin inkişaf perspektivlərini müzakirə ediblər.

Nazir Ceyhun Bayramov Ermənistan-Azərbaycan sərhədinin Tovuz rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin son hərbi təxribatı barədə məlumat verib və bu təxribatın Ermənistan rəhbərliyinin münaqişənin həlli üzrə danışıqlar prosesinə əngəl törətmək məqsədi güddüyünü açıq şəkildə nümayiş etdirdiyini bildirib.

Vendi Morton, öz növbəsində, bölgədə gərginliyin aradan qaldırılmasının vacibliyini vurğulayıb.

Tərəflər, habelə qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparıblar.

## Dövlət Neft Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib



Avqustun 20-də Azərbaycan Respublikasının Baş Naziri, Dövlət Neft Fondunun Müşahidə Şurasının sədri Əli Əsədovun sədrliyi ilə şuranın videoformatda növbəti iclası keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2020-ci ilin yeddi ayı ərzində fəaliyyətinin yekunları və fondun 2020-ci il üçün büdcəsinə ediləcək dəyişikliklər müzakirə edilib. Həmçinin iclasda yeni çağırışlar fonunda Dövlət Neft Fondunun uzunmüddətli dayanıqlılığı məsələləri də ətraflı müzakirə olunub.

Dünya bazarında neftin qiymətinin dəyişməsi, OPEC+ anlaşması üzrə hasilatın azalması və dövlət büdcəsinin dürüstləşməsi ilə əlaqədar Neft Fondundan büdcəyə əlavə transfert edilməsi Dövlət Neft Fondunun 2020-ci il üçün büdcəsinə də yenidən baxılması zərurətini yaradıb.

Dövlət Neft Fondunun büdcəsinə dəyişikliyi nəzərdə tutan layihə Müşahidə Şurası tərəfindən məqsədəmüvafiq hesab olunub və Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi barədə qərar qəbul edilib.

## Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası Məhərrəm ayı ilə bağlı müraciət yayıb

*Əvvəli 1-ci səh.*



Bu il Aşura dünyada davam edən koronavirus pandemiyası dövrünə təsadüf edir. Aylardır ki, koronavirus pandemiyası bütün dünyanı məngənəsinə alıb, yüz minlərlə insan bu qorxunc bəla üzündən həyatını itirib, milyonlarla insan xəstəxanalarda ölümlə həyat arasında mübarizə aparmaqdadır. İnsan sağlamlığına ciddi təhlükə, ölümcül təhdid olan, hələ də səngiməyən bu bəlanın aradan qaldırılması yönündə dünya birliyi böyük səylə çalışır. Şükürlər olsun ki, dövlətimiz tərəfindən xəstəliyin aradan qaldırılması üçün bütün lazımi tədbirlər görülür, insanlarımız diqqət və qayğı ilə əhatə olunublar. Ölkə rəhbərliyinin qayğı və diqqətini öz üzərində hiss edən insanlarımız hökumətin verdiyi zəruri qərarlara hörmət, məsuliyyət və anlayışla yanaşırlar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi və diqqəti sayəsində vətəndaşlarımızın sağlamlığı üçün önləyici tədbirlər görülür, həm Bakıda, həm də ayrı-ayrı bölgələrimizdə modul tipli xəstəxanalar istifadəyə verilir. Xəstəliklə mübarizədə yerli həkimlər fədakarlıq nümayiş etdirir, əcnəbi həkimlər də prosesə cəlb olunur. Nazirlər Kabineti yanında Operativ Qərargah xəstəliyin miqyasının genişlənməməsi, əhalinin sağlamlığının qorunması məqsədilə lazımi tədbirlər həyata keçirir, müvafiq tövsiyələrini verir.

Dini mərkəz - Qafqaz Müsəlmanları İdarəsinin ölkəmizdə karantin rejimi tətbiq olunan ilk günlərdən Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah ilə ətraflı məsləhətləşmələrdən sonra zəruri tövsiyələri nəzərə alaraq, koronavirusa yoluxma hallarının qarşısının alınması məqsədilə ölkə ərazisindəki bütün məscid və ziyarətgahlarda ibadətlərin müvəqqəti dayandırılmasına dair qərar verib. Uca Allahın yaratdığı ən müqəddəs dəyər olan insan həyatının qorunması məqsədilə bu məcburi addımın atılmasında əsas məqsəd vətəndaşlarımızın həyat və sağlamlığının qorunmasıdır.

Pandemiya dövrünün məcburi təcrid tədbirləri virus təhlükəsinin qapalı və açıq məkanlarda insanların sıx toplaşdığı şəraitdə artması ilə əlaqədardır. Dünyanın bütün nöqtələrində bu və ya digər şəkildə təcridolunma həyata keçirildiyi, islamın vacib şərtlərindən biri olan müqəddəs Həcc ziyarətinin, habelə digər dinlərin müqəddəs ayinlərinin müvəqqəti dayandırılması artıq dövrümüzün gerçəkliyidir. Aşura kimi, ənənəvi olaraq, böyük kütləviliyi ilə seçilən, sosial məsafəyə əməl edilməsinin təmini qeyri-mümkün olan mərasim insanların virusa yoluxma sayının artma ehtimalı baxımından böyük təhlükə yarada bilər. Bu gerçəkliyi nəzərə alaraq, Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və səlahiyyətli nümayəndələri bəyan edir ki, Operativ Qərargahın qərarına əsasən bu il Məhərrəmlik dönəmində məscid və ziyarətgahlarda təziyə mərasimləri keçirilməyəcəkdir. QMİ-nin yerlərdəki qazı, səlahiyyətli nümayəndə və imamları bu tövsiyələri dindarlara çatdırmalıdırlar.

İnsan sağlamlığının qorunması Uca Allahın istəyidir və bununla bağlı hər birimizin üzərinə həm özümüz, həm də yaxınlarımızın sağlamlığı ilə bağlı böyük məsuliyyət və dövlətimizin bu istiqamətdə tədbirlərinin səmərəliliyinin təmini baxımından ictimai vəzifə düşür. QMİ-nin Qazılar Şurası və səlahiyyətli nümayəndələri bildirir ki, Uca Allahın buyurduqlarına, müqəddəs hədislərə istinadən özünün, yaxınlarının və ətrafındakıların həyat və sağlamlığını təhlükəyə atmamaq hər bir dindarın borcudur. İmanlı insan təkcə öz canının deyil, başqalarının da canının qorunmasından məsul, mükəlləfdir. Dinimiz müxtəlif xəstəliklərə qarşı önləyici tədbirlərin alınmasına, xüsusilə yoluxucu xəstəliklərə qarşı son dərəcə diqqətli olmağa çağırır. Hər bir insan belə bir təhlükədən özünü gözləməlidir. Bir yerdə yoluxucu xəstəlik olduğunu bilə-bilə oraya getmək insanın özünü təhlükəyə atması deməkdir. Deməli, belə bir xəstəlik ehtimalı olan yerlərdən uzaq durmaq lazımdır. Yoluxucu xəstəlik olan vəba haqqında Həzrəti Peyğəmbərimiz belə buyurub: "Vəbanın ortaya çıxdığını eşitdiyiniz bir yerə getməyin. Əgər olduğunuz yerdə vəba görülərsə, siz də oradan kənara çıxmayın". Yoluxucu xəstəliklərin geniş yayıldığı şəraitdə yaşayan insanlar bu mövzuda ayıq olmalı, heç bir vəchlə öz həyatını təhlükəyə atmamalıdır. Çünki həm gündəlik həyatımızdan, həm də tarixdən məlum olduğu kimi, yoluxucu xəstəliklər məhz insanların etinasızlığı ucbatından sürətlə yayılıb və bəşəriyyətin bəlasına çevrilib. Heç bir müsəlmanın özünü təhlükəyə atmağa ixtiyarı yoxdur. Çünki bizi yaradan Allah bu canı bizə əmanət olaraq verib və əmanəti sahibinə qaytarana qədər onu qorumaq hər birimizin borcudur. Elə isə bu əmanəti qoruyaq və özümüzü təhlükəyə məruz qoymayaq. "Qurani-Kərim"də buyurulduğu kimi: "Öz əlinizlə özünüzü təhlükəyə atmayın" (Bəqərə, 195).

Dövlətimiz tərəfindən görülən zəruri tədbirlərə böyük önəm və dəyər verən biz, din xadimləri hər zaman olduğu kimi, dövlətimizin yanındayıq və onun xalqımızın rifah və tərəqqisi naminə səylərini dəstəkləyir, fəaliyyətinə rəvac diləyirik. Öz növbəmizdə, pandemiyaya dair hökumətimiz tərəfindən müəyyən edilən bütün zəruri qaydalara əməl etməli, verilmiş tövsiyələri hər kəsə təlqin etməli, xəstəlik təhlükəsinin qarşısının alınması, tezliklə sovuşması üçün əlimizdən gələni əsirgəməməliyik. Ümidvarıq və dualar edirik ki, Allahın izni ilə bu çətin günlər keçəcək, xalqımız yenidən məscidlərdə ibadət etmək, dini ayin və mərasimlərini kütləvi şəkildə yerinə yetirmək lütfünə qovuşacaqdır, İnşallah.

Vətənimizin və millətimizin rifahı üçün Allaha dualar etmək hər zaman hər birimizin mənəvi borcudur. Məhərrəmlik dönəmində də bütün ibadət və dualarımızda Kərbəla şəhidləri ilə yanaşı, Qarabağ, Xocalı şəhidlərinin, suverenliyimiz, ərazi bütövlüyümüz uğrunda canlarından keçən bütün vətən övladlarının əziz xatirəsini yad edir, Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımızın işğaldan tezliklə azad olunmasını diləyirik. Vətəni sevmək imandandır. Allah doğma torpağımız uğrunda canlarını fəda etmiş, Peyğəmbər Məhəmməd Salavatullahın mübarək hədisində buyurulduğu kimi, Allah yanında imanın, mənəviyyatın ən yüksək məqamına yüksəlmiş bütün vətən övladlarına rəhmət eləsin. Allah tezliklə Qarabağımızın işğaldan azad olmasını, vətən torpağının bütövlüyünün bərpasını bizlərə nəsib etsin, İnşallah.

Məhərrəmlik dövründə təziyə ehsanı olaraq imkansız ailələrə, maddi sıxıntı çəkən insanlara ərzaq və ya hər hansı sovqatın çatdırılması Allaha xoş gedən bəyənilən əməldir. Həmçinin son illər Məhərrəmlik dönəmində Qafqaz Müsəlmanları İdarəsinin təşəbbüsü ilə gerçəkləşən və xalqımız tərəfindən təqdir edilən tibbi ehtiyaclar üçün Kərbəla şəhidlərinin xatirəsinə qan verilməsi ən münasib əzadarlıq nümunəsidir. Ümidvarıq ki, İnşallah, dindarlarımız bu il də humanist ənənəni davam etdirərək pandemiya səbəbindən məscidlərdə deyil, ölkəmizin qan bankının paytaxtda və bölgələrdəki filiallarında ehsan niyyəti ilə qan verəcəklər. Həmin məkanların ünvanları Qafqaz Müsəlmanları İdarəsinin rəsmi veb səhifəsində (www.qafqazislam.com) yerləşdirilib.

Uca Allah xalqımızı, dövlətimizi hifz etsin və möhtərəm dövlət rəhbərimizin Azərbaycan naminə fəaliyyətinə rəvac versin. Amin.

Vəs-səlamu əleykum və rəhmətullahi və bərəkatuhu".

## Vətəndaşların onlayn qəbulu keçirilib

Avqustun 20-də Gənclər və İdman naziri Azad Rəhimov Mingəçevir şəhərindən, Ağdaş, Ağsu və Göyçay rayonlarından olan vətəndaşların təklif və şikayətlərini onlayn qaydada dinləyib.

Gənclər və İdman Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbulda 20-yə yaxın vətəndaş iştirak edib. Gənclərin müraciətləri əsasən könüllülük, rəssamlıq, Qarabağ həqiqətləri ilə bağlı dünya ictimaiyyətini məlumatlandırmaq üçün bir sıra onlayn platformaların yaradılması, layihələrin gerçəkləşdirilməsi istiqamətində nazirlik tərəfindən dəstəyin göstərilməsi məsələləri ilə bağlı olub. Həmçinin fəxri adların, idman zallarına lazımi avadanlığın verilməsi, Ağdaşda Gənclər Mərkəzinin, Ağsuda Olimpiya İdman Kompleksinin tikintisi ilə bağlı da qəbulda müraciətlər səsləndirilib.

Nazir Azad Rəhimov vətəndaşların suallarını cavablandırdıqdan sonra gənclərə müraciət edərək onların bu dövrdə bacardıqları qədər yaradıcı olmalarının, müxtəlif layihələr üzərində çalışmalarının vacibliyini bildirib. Məhz karantin dönəmi bitdikdən və layihələrin icrasına başlanıldıqdan sonra bunun onların inkişafına dəstək verməklə yanaşı, çox böyük yeniliklərə də təkan vermiş olacağı qeyd edilib.

## İslam Əməkdaşlıq Təşkilatının Milli Xəbər Agentlikləri Birliyi virtual forum keçirib

Avqustun 20-də İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Milli Xəbər Agentlikləri Birliyi (UNA) "Pandemiya dövründə müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri arasında birgəyaşayışın və tolerantlığın gücləndirilməsi yolları" mövzusunda virtual forum keçirib.

AZƏRTAC xəbər verir ki, forumda 50-yə yaxın ölkənin milli xəbər agentliklərinin rəhbərləri və nümayəndələri, rəsmi şəxslər, diplomatlar iştirak ediblər.

İslam Dünyası Liqasının Baş katibi Məhəmməd bin Əbdülkərim əl-İsa tədbirdə rəhbərlik etdiyi təşkilatın pandemiya dövründə birgəyaşayışın və tolerantlığın gücləndirilməsi istiqamətində gördüyü işlərdən danışıb. O, həmçinin islamofobiyaya, dini radikalizmə və ekstremizmə qarşı mübarizənin gücləndirilməsinin, milli-mənəvi, dini, multikultural dəyərlərə hörmətlə yanaşılmasının önəmini vurğulayıb.

Müzakirələrlə davam edən forumda çıxış edənlər ölkələrində pandemiya dövründə multikulturalizmin, tolerantlığın və dini dözümlülüyün inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən tədbirləri diqqətə çatdırıblar.

Virtual forumda çıxış edən UNA-nın İcraiyyə Şurasının üzvü, AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov Azərbaycanın tolerantlıq nümunəsinin, birgəyaşayış dəyərlərinin dünyada təbliği üçün Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə ölkəmizdə təşkil olunmuş beynəlxalq tədbirlərin, forumların əhəmiyyətindən bəhs edib. A.Aslanov bildirib ki, pandemiya səbəbindən ənənəvi tədbirlər təxirə salınsa da, insanlar virtual imkanlardan istifadə edərək forumlar keçirir və fikirlərini, təcrübələrini bölüşürlər. Qlobal böhran insanların qarşılıqlı həmrəyliyini, dostluğunu zəiflədə bilməyib, əksinə, onu müvəqqəti olaraq ənənəvi ifadə formasından virtual aləmə daşıyıb. İnanırıq ki, bəşəriyyət birgə səylərlə bu bəladan da alnıaçıq çıxacaq.

## Gəncənin vurulacağı ilə bağlı bəyanat Ermənistanın Azərbaycana qarşı təcavüzünün, nifrətinin növbəti təzahürüdür

Təcavüzkar Ermənistan Azərbaycana qarşı hədə və təhdidlərini davam etdirir. Son günlər belə bir təhdid Azərbaycanın tarixi şəhəri Gəncənin vurulacağı ilə bağlı yayılıb. Ölkəmizin işğal olunmuş ərazilərində yaradılmış cinayətkar rejim vasitəsilə səsləndirilən bu bəyanat Ermənistanın ölkəmizə qarşı təcavüzünün, nifrətinin, azərbaycanofobiyanın növbəti təzahürüdür.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Dağlıq Qarabağın azərbaycanlı icmasının bəyanatında yer alıb.

Bəyanatda deyilir: "Gəncə kimi qədim tarixə malik, dünya mədəni irsində xüsusi yeri olan şəhərin hədəf seçilməsi Ermənistanın insanlıq əleyhinə yönəlmiş təhlükəli siyasətindən xəbər verir. Bu, bir daha onu göstərir ki, Ermənistan terror və vandalizmi dövlət siyasəti səviyyəsinə qaldırıb və bu gün də həmin xətti israrla davam etdirir.

Bu, son günlərdə yayılmış Ermənistanın Milli Təhlükəsizlik Strategiyası sənədində də öz təsdiqini tapıb. Bəşəriyyət tarixində mühüm rolu olmuş qədim sivilizasiyanın məhv olmasına sevinən Ermənistan rəhbərliyindən ayrı nəsə gözləmək mənasızdır. İşğalçı Ermənistan dağıtdığı, məhv etdiyi həyat və irsimiz üzərində də öz "rifahını" qurmağa çalışır.

Bir tərəfdən Gəncənin mülki əhalisini qırğına məruz qoymaqla təhdid edən bu ölkə, digər tərəfdən işğal etdiyi ərazilərimizdə yaşayan "mülki əhalinin qorunması" üçün yeraltı sığınacaqlar tikir. Bu, onu göstərir ki, Ermənistan münaqişənin sülh yolu ilə həllində maraqlı deyil və ölkəmizə qarşı yeni hücumlar üçün fürsət və bəhanələr axtarır.

Biz münaqişənin danışıqlar yolu ilə həllini istəyirik və Dağlıq Qarabağın erməni icmasının azərbaycanlı icma ilə bərabər ölkəmizin ərazi bütövlüyü çərçivəsində sülh şəraitində birlikdə yaşamasını dəstəkləyirik".

## Qərb Belarusa qarşı

### Avropa Minskə münasibətdə təzyiq yolu seçib

Cari ayın 9-da keçirilmiş prezident seçkilərindən sonra Belarusda yaranmış ictimai-siyasi vəziyyət Avropa ölkələri liderlərinin gündəliyində əsas mövzulardan biri olaraq qalır. Ötən həftə Avropa İttifaqı (Aİ) ölkələrinin xarici işlər nazirlərinin görüşü zamanı Belarusa qarşı sanksiyalar tətbiq edilməsi barədə qərar qəbul olunmuşdur.

Belarus müxalifətinin tərəfdarları səsvermə başa çatar-çatmaz şəhərlərin küçələrinə çıxıb Prezident Aleksandr Lukaşenkonun dövlət başçısı kürsüsündə qalmasına etiraz əlaməti olaraq kütləvi aksiyalara başlamışlar. Onların iddiasına görə, səsvermənin nəticələri saxtalaşdırılmışdır və bu səbəbdən yeni seçkilər keçirilməlidir. İqtidar səslərin yenidən sayılması təklifi ilə razılaşmış, amma müxalifət özünün bir qədər əvvəl irəli sürdüyü bu ideyanın artıq aktuallığını itirdiyini bəyan etmişdir.

Belə olan təqdirdə hakimiyyət qanunsuz etiraz aksiyalarını yatırmaq üçün müvafiq tədbirlər görmüşdür. Rəsmi məlumata görə, nümayişlərin ilk günlərində təxminən 7000 etirazçı saxlanılmış, üç nəfər həlak olmuşdur. Hüquq mühafizə orqanları kütləvi aksiyaları dağıtmaq üçün xüsusi vasitələrdən, o cümlədən gözyaşardıcı qazdan və rezin güllələrdən istifadə etmişdir.

Prezident Lukaşenko seçkilərin təkrarlanması tələbini qətiyyətlə rədd edir. Belarus liderinin fikrincə, ölkədə etiraz aksiyaları Qərb dövlətləri tərəfindən təşkil olunur və maliyyələşdirilir. Odur ki, hökumət ölkədə ictimai asayişi tezliklə bərpa etməkdə israrlıdır, çünki cəmiyyətdə gərginliyin davam etməsi, ayrı-ayrı sənaye müəssisələrində keçirilən tətillər milli iqtisadiyyata baha başa gəlir. Rəsmi məlumata görə, avqustun 9-dan bəri ölkə iqtisadiyyatı təxminən 500 milyon dollar itirmişdir.

Belarusda növbəti prezident seçkilərinin nəticələri, gözlənildiyi kimi, Qərb dövlətlərini razı salmamışdır. ABŞ Prezidenti Donald Tramp Belarusda yaranmış vəziyyətin "dəhşətli" olduğunu bildirmişdir. O qeyd etmişdir ki, bu ölkədə cərəyan edən proseslərin inkişafını diqqətlə izləyəcək. Kanada və Böyük Britaniya da oxşar mövqe ortaya qoymuşlar.

Aİ-nin srağagün Brüsseldə videokonfrans formatında keçirilmiş fövqəladə sammiti bəyan etmişdir ki, Belarusda prezident seçkilərinin nəticələrini tanımır. Zirvə görüşünün iştirakçıları bildirmişlər ki, Belarus etirazçılarının yanındadırlar. Sammitdə sədrlik edən Almaniya Kansleri Angela Merkel heç bir dəlil-sübut gətirmədən qeyd etmişdir ki, "seçkilər nə ədalətli, nə də azad idi və bu səbəbdən seçkilərin nəticəsi tanına bilməz".

Aİ sammitinin iştirakçıları Belarusda yaranmış gərgin vəziyyəti nizama salmaq yolunu da göstərmişlər. Onların fikrincə, kütləvi aksiyalar zamanı saxlanılmış bütün şəxslər qeyd-şərtsiz sərbəst buraxılmalıdırlar. Bundan başqa, müxalifətin israr etdiyi milli dialoq qurmaq zəruridir.

Aİ-nin Belarusda yaranmış ictimai-siyasi vəziyyətə münasibəti bununla məhdudlaşmır. Aİ Şurasının sədri Şarl Mişel məlumat vermişdir ki, Aİ Belarusda zorakılığa və seçki saxtakarlığına görə məsuliyyət daşıyanların bir çoxuna qarşı sanksiyalar tətbiq edəcək. Öz növbəsində Avropa Komissiyasının (AK) sədri Ursula von der Lyayen bildirmişdir ki, Brüssel Belarusda hakimiyyətin dinc, demokratik yolla təhvil verilməsini müşayiət etməyə hazırdır. Digər tərəfdən, AK Belarus xalqını dəstəkləmək üçün 53 milyon avro ayıracaq. Bu məbləğdən üç milyonu repressiya qurbanlarına və vətəndaş cəmiyyətinə kömək üçün ayrılacaq. Qalan pul Belarusda koronavirus pandemiyasının fəsadları ilə mübarizə aparılması üçün nəzərdə tutulmuşdur.

Avropa liderlərinin bəyanatlarından belə bir qənaət hasil olur ki, Aİ Lukaşenkonu bundan sonra hakimiyyətdə görmək istəmir. Belarus iqtidarı ilə müxalifət arasında dialoq qurmaq, hakimiyyəti dinc yolla təhvil vermək kimi təşəbbüsləri reallaşdırmaq istəyi nəticə etibarilə dövlət başçısını siyasi səhnədən uzaqlaşdırmaq məqsədi güdür. Amma bu planı Belarus xalqının dəstəkləyəcəyini söyləmək çətindir. Belarusun qonşuluğunda - Ukraynada altı il əvvəl baş vermiş "Maydan" hadisələri belarusların yadından çıxa bilməz. O vaxt qonşu ölkədə hakimiyyət dəyişikliyinin doğurduğu ağır fəsadlar ukraynalılara ucuz başa gəlməmişdir. Belarus iqtidarı, ilk növbədə Prezident Lukaşenko xalqın yeni "Maydan"la üzləşməsinə imkan vermək fikrində deyil. Belarusların özlərinin də "Maydan" adlı bataqlığa düşmək kimi niyyəti ola bilməz, çünki ukraynalı qonşularından fərqli olaraq, indiyədək sakit, dinc şəraitdə yaşayıblar, əhalinin rifah halı da pis deyil.

Öz növbəsində Lukaşenko hesab edir ki, müxalifət öz fəaliyyəti ilə ölkəni Rusiya ilə qarşıdurmaya sürükləyir. Onun dediyinə görə, Qərb ölkədə keçirilən etiraz aksiyalarını maliyyələşdirməkdə davam edir. Lukaşenkonun mətbuat katibi Natalya Eysmont isə nəzərə çarpdırmışdır ki, Belarus Prezidenti hazırkı mərhələdə hərəkətlərini Rusiya Prezidenti Vladimir Putinlə əlaqələndirir.

Digər tərəfdən, Rusiya Belarus hadisələrini diqqətlə izləyir. Bu da təsadüfi deyil. İki ölkəni sıx siyasi, iqtisadi, hərbi əlaqələr birləşdirir. 1999-cu ildə imzalanmış İttifaq Dövləti müqaviləsi Rusiya və Belarusun bir sıra sahələrdə inteqrasiya etməsini nəzərdə tutur. Üstəlik, iki ölkə Avrasiya İqtisadi Birliyi və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı üzrə müttəfiqdir. Ona görə də Rusiyanın postsovet məkanının qərbində yeganə müttəfiqini Avropaya güzəştə gedəcəyini gözləmək yersizdir.

Aİ liderləri Belarusda vəziyyəti müzakirə etmək üçün Lukaşenkoya yox, Rusiya Prezidenti Vladimir Putinə üz tutmağa üstünlük verirlər. Putinin sərgilədiyi mövqe isə qətidir: Belarusun daxili işlərinə hər hansı müdaxilə qəbuledilməzdir, çünki bu cür hərəkətlər ölkədə böhranın yalnız kəskinləşməsinə gətirib çıxarar.

Hazırda Belarusda vəziyyət normallaşmaya doğru gedir. Müxalif qüvvələrin fəallığı aşağı düşür. Bəlkə də etirazçılar artıq yorulublar, özü də Lukaşenkonun istefasını tələb etməyin həm cəmiyyət üçün faydasız, həm də perspektivsiz olması qənaətinə gəliblər.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

## Ermənistanda sosial fəlakət böyüyür

*Əvvəli 1-ci səh.*

Ancaq real vəziyyət Ermənistanın faktiki olaraq demoqrafik böhran yaşadığını, bu problemin həlli perspektivinin olmadığını göstərir.

Erməni mətbuatının verdiyi məlumata görə, aparılan araşdırmalar göstərir ki, miqrasiya templəri artan xətt üzrə davam etsə, 2025-ci ilədək respublikada əhalinin sayı 1,5 milyon nəfər azalacaq. 2050-ci ildə isə ölkəni tərk edənlərin sayı 2 milyon nəfərə çatacaq. Qeyd olunur ki, respublika əhalisinin sürətlə qocaldığı 100 ölkə arasında yer alır. Hazırda Ermənistanda əmək qabiliyyətli əhalinin 40-50 faizi xaricə köçmək istəyir.

Ermənistanda bu sahədə araşdırma aparan yerli və beynəlxalq təşkilatlar da hesab edirlər ki, proseslərin real gedişi sözügedən ölkədə insan resursunun sürətlə tükəndiyini meydana çıxarır. Əhalinin artım səviyyəsi aşağı olduğundan yaşlıların xüsusi çəkisinin davamlı surətdə artması da Ermənistanı böyük sürətlə demoqrafik böhrana yuvarlayır. Bu məsələyə diqqət yetirən "4rd.am" saytı yazır ki, hər il Ermənistanı daha yaxşı həyat axtarışında olan təqribən 80 min erməni tərk edir: "Ermənistanın kənd rayonlarında yoxsulluq və işsizlik insanları doğma yerləri tərk etməyə məcbur edir. Burada əksər hallarda kişilər evlərini tərk edirlər, bütöv kəndlər qadınların öhdəsinə qalır. Bunun səbəbi odur ki, kişilərin ailələrini saxlamaq üçün yeganə pul qazanmaq yolu Rusiyaya getməkdir".

Xaricə köç edən ermənilərin çox vaxt Ermənistanla əlaqələrini tamam kəsmələri, bu ölkədə baş verənlərə biganə yanaşmaları da qeyd edilənlər fonunda tamamilə təbii sayılmalıdır. Elə müxtəlif dövlətlərdə yaranan və fəaliyyət göstərən erməni diaspor təşkilatlarının və lobbisinin Ermənistana münasibətlərindən də bunu aydın görmək mümkündür.

Danılmaz həqiqətdir ki, bu gün Ermənistanın üzləşdiyi çoxsaylı böyük problemlərin meydana gəlməsində və getdikcə daha da dərinləşməsində günahkarlardan biri məhz erməni diasporudur. Ermənistanın istər daxili, istərsə də xarici siyasət vektorlarının müəyyən olunmasında həlledici təsir gücünə malik diaspor təşkilatlarının mövcud fəaliyyəti adıçəkilən ölkəni getdikcə daha böyük problemlərə düçar edir.

Lakin fəaliyyət göstərdiyi xarici ölkə ərazisində özünə rahat şərait yaradan, maddi çətinliklərlə üzləşməyən erməni diasporunu Ermənistanın üzləşdiyi problemlər qətiyyən maraqlandırmır. Əksinə, diaspor Ermənistan hakimiyyətinin onun diktəsi ilə hərəkət etməsi üçün daim rəsmi Yerevanı böyük təzyiq altında saxlayır, tez-tez bu ölkəyə göndərdiyi maliyyə və digər yardımları kəsəcəyi ilə hədələyir.

Genişmiqyaslı sosial-iqtisadi problemlər məngənəsində boğulan Paşinyan hakimiyyəti isə hər zaman diaspor qurumlarından gələn göstəriş və tapşırıqları can-başla yerinə yetirməyə müntəzir dayanır. Elə bunun nəticəsidir ki, Ermənistanın taleyini həll edən qərarlar bu ölkədə yox, onun sərhədlərindən kənarda qəbul olunur. Bu vəziyyət Ermənistanın onsuz da formal xarakter daşıyan dövlətçiliyinin məhvini daha da sürətləndirməkdə, onun iflasını tezləşdirməkdədir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***



# İlham Əliyevin qlobal layihələri dünyada ölkəmizin nüfuzunu yüksəldir

## Avrasiyanın mühüm nəqliyyat qovşağına çevrilən Azərbaycan böhran şəraitində də maneəsiz tranzit daşımalarını təmin edir

*Əvvəli 1-ci səh.*

Azərbaycanın artıq Avrasiyada önəmli nəqliyyat və logistika mərkəzlərindən birinə çevrildiyini, bir çox ölkəni birləşdirən layihələrin reallaşmasında böyük rol oynadığını deyən Prezident məhz bu çətin dönəmdə də ölkəmizin etibarlı tranzit-logistika mərkəzi kimi öz roluna məsuliyyətlə yanaşaraq, ərazisi vasitəsilə daşımaları maneəsiz təmin etdiyini vurğulamışdı.

Bu gün Azərbaycanın tətbiq etdiyi güzəştlər Türk Şurasına üzv ölkələrin daşıyıcıları üçün nəqliyyat əməliyyatlarının sadələşdirilməsi və daşıma xərclərinin azaldılması baxımından əhəmiyyətlidir. Bu səbəbdən Avropadan Asiya istiqamətində hərəkət edən daşıyıcılar üçün Xəzər dənizi üzərindən keçən marşrutun üstünlüklərindən davamlı şəkildə istifadənin nəzərdən keçirilməsi mövcud yük axınının daha da artmasına öz töhfəsini verir.

### Dəmir yollarının səmərəliliyinə görə Azərbaycan dünyada 11-ci yerdədir

Cənab İlham Əliyevin həyata keçirdiyi iqtisadi strategiyaya uyğun olaraq son illərdə nəqliyyat infrastrukturunun, o cümlədən dəmir yolu nəqliyyatı sisteminin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsini təmin etmək məqsədilə bir sıra mühüm qərarlar qəbul olunub. Bu qərarlara əsasən ölkənin dəmir yolları şəbəkəsinin genişləndirilməsi, müasirləşdirilməsi və yenilənməsi istiqamətində intensiv işlər aparılıb, beynəlxalq və regional nəqliyyat dəhlizlərinin, həmçinin "Bakı-Tbilisi-Qars" və "Şimal-Cənub" layihələrinin reallaşması prosesində Azərbaycanın aktiv iştirakı təmin edilib.

Hazırda pandemiya dövründə trans-Xəzər dəhlizi boyunca zəruri malların - ərzaq məhsulları, dərman və tibbi ləvazimatların maneəsiz daşınmasının və təchizat zəncirinin daim fəaliyyəti təmin edilir. Azərbaycan üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlir. Azərbaycan yalnız tranzit ölkə kimi yox, eyni zamanda bir sıra nəqliyyat layihələrinin təşəbbüskarı və icraçısı kimi çıxış edir.

Bu gün Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri ilə beynəlxalq yük daşımalarını fasiləsiz olaraq həyata keçirir. Bu dəhlizlərin qovşağında yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi ölkənin tranzit imkanlarının genişləndirilməsində həlledici rola malikdir. Bu limanın inşası üçün ərazi təsadüfən seçilməmişdir. Belə ki, Ələt qəsəbəsi respublikanın ərazisindən keçən avtomobil və dəmir yollarının kəsişməsində yerləşir ki, buraya su yollarının da əlavə olunmasından sonra həmin ərazinin geniş potensial ixrac imkanlarına malik beynəlxalq nəqliyyat qovşağına çevrilməsi üçün zəmin yaranıb.

Bu gün Azərbaycan Xəzər dənizində 260 gəmidən ibarət ən böyük donanmaya malikdir. Müasir gəmiqayırma zavodunda müasir gəmilərin hazırlanması, təmiri prosesləri reallaşır. Bu gəmilər Xəzər dənizi vasitəsilə yükdaşımaların artırılmasına xidmət edir.

Bütün bunlar isə ölkəmizdə nəqliyyat sektoruna qoyulmuş böyük investisiyalar sayəsində müasir nəqliyyat və logistika infrastrukturunun yaradıldığını təsdiq edir.

Davos İqtisadi Forumunun son hesabatında dəmir yollarının səmərəliliyinə görə Azərbaycanın dünyada 11-ci yerdə qərarlaşması da beynəlxalq birliyin cənab İlham Əliyevin reallaşdırdığı layihələrə verdiyi yüksək qiymətin göstəricisidir.

### Təhlükəsizliyin qarantı

Birmənalı şəkildə deyə bilərik ki, cənab İlham Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə Asiyanı Avropa ilə bağlayan nəhəng nəqliyyat, logistik transmilli layihələrin reallaşması ölkəmizin beynəlxalq aləmdə layiqli yer tutduğunun göstəricisidir.

Bu layihələr eyni zamanda Azərbaycanın ixrac potensialının tam həcmdə realizə olunması üçün əhəmiyyətli rol oynayır. Artan tranzit imkanları ölkəmizə həm siyasi, həm də iqtisadi dividendlər gətirir. Bu layihələr həmçinin bölgədə, eləcə də qlobal miqyasda təhlükəsizliyin qarantına çevrilir.

Əlbəttə ki, milli iqtisadiyyatın aparıcı sahəsi olan nəqliyyat sistemi ölkənin iqtisadi təhlükəsizliyinin etibarlı təminatında çox mühüm əhəmiyyətə malikdir. Dünya təcrübəsi sübut edir ki, bir çox ölkələr etibarlı nəqliyyat sisteminin yaradılmasını özlərinin milli iqtisadi təhlükəsizliyinin əsas təminatı kimi qəbul edirlər.

Regionda hadisələrin inkişaf istiqamətini müəyyən edən, coğrafi mövqeyindən, daxili-xarici investisiyalarından uğurla faydalanan Azərbaycan Cənubi Qafqazda ən böyük investisiya layihələrinə sahibdir və cənab İlham Əliyevin təşəbbüsü ilə reallaşan bu mühüm layihələrin Azərbaycanın tarixinin ən qüdrətli dövlətinə çevrilməsində böyük payı var.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# «Beyin mərkəzi» dövlətçiliyin inkişafında aparıcı rol oynayır

## Azərbaycanın innovativ təcrübəsi dünya ölkələrinə nümunə göstərilir

*Əvvəli 1-ci səh.*

İİTKM-in bugünədək hazırladığı və saytında yerləşdirdiyi materiallar belə qənaətə gəlməyə əsas verir ki, mərkəz dövlət strategiyaları və proqramlarının hazırlanmasında kifayət qədər təcrübə toplamış və güclü mütəxəssislərlə təmin olunmuşdur. İİTKM-in mütəxəssislərinin apardıqları təhlil, monitorinq və qiymətləndirmələr müxtəlif iqtisadi sahələri əhatə etməklə yanaşı, onların arasında ümumi bağlılıq yaradır və sinergetik yanaşmanı təmin edir. Bu qurumun tədqiqatları ölkə mediası üçün də xüsusi əhəmiyyət kəsb edir.

Bütün planetin pandemiya ilə üzləşdiyi vaxtda Azərbaycan da əksər ölkələr kimi ciddi çətinliklər qarşısındadır. Belə ki, pandemiyanın törətdiyi fəsadlardan əlavə yeni təhlükələr meydana çıxmışdır: bir tərəfdən quraqlıq və onun fəsadı olan səhralaşma problemi gündəmə gəlir, digər tərəfdən isə neftin qiymətinin kəskin düşməsi ölkə iqtisadiyyatına mənfi təsir göstərir. Eyni zamanda Ermənistanın işğalçılıq siyasəti davam edir. Təmas xətti boyu davamlı təxribatlar Qafqazda atəşkəsin kövrək olduğunu göstərir.

İİTKM-in icraçı direktoru, iqtisad elmləri doktoru Vüsal Qasımlı bildirir ki, rəhbərlik etdiyi qurum fəaliyyətini dövrün tələbləri ilə uzlaşdırır, yeni reallıqlara daha nikbin yanaşır: "İlk növbədə kadrlarımız peşəkarlıq və dövlətçilik prinsiplərini əsas götürərək tam məsuliyyəti ilə komanda işini ortaya qoyurlar".

Mərkəzin tətbiq etdiyi rəqəmsal həllər pandemiya şəraitinə uyğunlaşdırılır, həm yerli, həm də beynəlxalq səviyyədə kommunikasiya daha da gücləndirilir. Dövlət proqramları və strategiyalarının monitorinqi və qiymətləndirilməsi islahatla bağlı təkliflərin və kommunikasiya üçün materialların hazırlanmasına dəstək verir.

Mərkəz tərəfindən 12 strateji yol xəritəsi, həmçinin rəqəmsal ödənişlərin genişləndirilməsi, plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılması, qida təhlükəsizliyinin təmin edilməsi, məşğulluq strategiyası, yerin təkinin geoloji öyrənilməsi və mineral xammal bazasından səmərəli istifadə kimi dövlət sənədlərinin monitorinqi aparılmış və hesabatlar hazırlanmış, **www.monitoring.az** portalı işlək vəziyyətə gətirilmişdir.

Dünya Bankı hesabatında monitorinq və qiymətləndirmə sahəsində innovativ həlləri tətbiq etməklə Azərbaycanın "nəticə-əsaslı yaxşı idarəetmə" nümunəsi yaratdığını bildirmiş, başqa ölkələrə innovativ təcrübə nümunəsi kimi təqdim etmişdir.

Vüsal Qasımlı onu da qeyd edir ki, mərkəz BMT İnkişaf Proqramı, Dünya Bankı, Avropa İttifaqı, BP şirkəti və digər qurumlarla faydalı əməkdaşlıq edir, sahibkarların, beynəlxalq təşkilatların, müstəqil ekspertlərin, QHT-lərin və konsaltinq şirkətlərinin islahat prosesinə cəlb olunması istiqamətində fəaliyyət göstərir. Bu da islahatların inklüzivliyi üçün əsaslar yaradır.

Mərkəzdə "EconLAB" iqtisadi təhlil laboratoriyası qurulmuş, makro, mezo və mikro səviyyədə beş modelin versiyaları üzrə müvafiq testlər keçirilmişdir. Həmçinin investisiya xərclərinin ümumi buraxılışa, pandemiyanın iqtisadiyyata, xüsusilə turizm sənayesinə qısa və uzunmüddətli təsirləri təhlil edilmişdir.

Azərbaycanın bu "beyin mərkəzi"nin artıq 40-a yaxın internet resursu, eləcə də "Facebook"da, "Linkedin"də, "Instagram"da səhifələri, "Youtube" kanalı fəaliyyət göstərir. Təkcə 2020-ci ilin əvvəlindən buradan hər gün iki-üç press-reliz KİV-ə ötürülür. Bundan başqa, ixrac, islahat və video-icmal kimi xüsusi buraxılışlar demək olar ki, hər həftə hazırlanır. Azərbaycan, rus və ingilis dillərində hazırlanan xəbərlər təkcə ölkə daxilinə deyil, həm də xaricə yayımlanır. İİTKM təkcə son bir ayda BMT, Dünya Bankı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Beynəlxalq Ticarət Mərkəzi, İtaliya Xəzinədarlığı, "E-Estonia", "Daily Sabah", "İnterfax" kimi beynəlxalq platformalarda təqdim olunmuşdur. Beləliklə, Azərbaycanın bu "beyin mərkəzi" uğura köklənmişdir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Bolqarıstanın xəbər agentliyi Hikmət Hacıyevin Ermənistanın yeni Milli Təhlükəsizlik Strategiyası ilə bağlı şərhini yayıb

Bolqarıstanın aparıcı KİV-dən olan "Cross" xəbər agentliyi Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Ermənistanın yeni Milli Təhlükəsizlik Strategiyası ilə bağlı şərhi əsasında məqalə yayıb. Məqalədə Hikmət Hacıyevin Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ regionunu və ətraf yeddi rayonunu işğal etməsi, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin tələblərinə baxmayaraq, Ermənistanın hələ də öz ordusunu işğal etdiyi ərazilərdən geri çəkməməsi, Ermənistanın işğal olunmuş ərazilərdə qeyri-qanuni fəaliyyəti, o cümlədən qeyri-qanuni məskunlaşma siyasəti, 2016-cı ilin Aprel döyüşləri, Ermənistanın işğal faktını öz müqəddəratını təyinetmə prinsipi ilə ört-basdır etməyə çalışması ilə bağlı fikirləri yer alıb. Yazıda ATƏT-in Minsk qrupu həmsədrlərinin və beynəlxalq ictimaiyyətin bu sənədə sərt reaksiya verməsi ilə bağlı çağırış əks olunub.




# Müharibə əlilləri və digər imtiyazlı şəxslərə ilin sonunadək daha 250 avtomobil veriləcək

Prezident İlham Əliyevin tapşırığına əsasən, müharibə əlillərinin və onlara bərabər tutulan şəxslərin, 1990-cı il 20 Yanvar hadisələri və Çernobıl AES-də hərbi xidmətlə əlaqədar əlilliyi olan şəxslərin avtomobillə təmin olunması işləri davam etdirilir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2020-ci ildə həmin kateqoriyalardan olan vətəndaşlara daha 400 avtomobilin verilməsi nəzərdə tutulub.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, ilin əvvəlindən bəri həmin kateqoriyadan olanlara 150 avtomobil təqdim edilib və ilin sonunadək daha 250 avtomobil veriləcək.

Təqdim olunan minik maşınları yerli istehsal olan "Khazar LX" avtomobilləridir.

Ümumilikdə indiyədək nazirlik tərəfindən müharibə əlilləri və digər imtiyazlı şəxslərə 6900 avtomobil verilib.

# Kürdəmir Rayon İcra Hakimiyyətinin qanun pozuntuları törətməkdə şübhəli bilinən vəzifəli şəxsləri tutulublar

Ölkəmizdə həyata keçirilən çoxşaxəli və sistemli islahatlara mane ola biləcək korrupsiya və digər mənfi hallara qarşı mübarizə tədbirləri çərçivəsində prokurorluq orqanlarının qətiyyətli və ardıcıl tədbirləri davam etdirilir.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, belə tədbirlərdən biri kimi, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən Kürdəmir Rayon İcra Hakimiyyətində baş vermiş qanun pozuntularına dair aparılmış araşdırma nəticəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

Aparılmış istintaqla Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərovun icra hakimiyyəti başçısının birinci müavini Tacəddin Novruzov, icra hakimiyyəti başçısı Aparatının Ərazi idarəetmə və yerli özünü idarəetmə orqanları ilə iş şöbəsinin müdiri Natiq Kərimov və icra hakimiyyətinin digər vəzifəli şəxsləri ilə qabaqcadan əlbir olmaqla və onlar vasitəsilə rayon ərazisində fəaliyyət göstərən səhiyyə, təhsil və digər dövlət müəssisələrindən, habelə bir sıra özəl müəssisələrdən müxtəlif məbləğdə pul vəsaitlərini almasına, eləcə də dövlətin mənafeyinə ağır nəticələrə səbəb olan mühüm zərər vuran digər qanunsuz hərəkətlər etməsinə əsaslı şübhələr müəyyən edilib. Belə ki, istintaqla həmin şəxslərin birbaşa və icra hakimiyyətinin digər vəzifəli şəxsləri vasitəsilə ayrı-ayrı vaxtlarda rayon ərazisində fəaliyyət göstərən səhiyyə müəssisələrindən ümumilikdə 137 min manat, Kommunal Müəssisələr Kombinatından 58 min manat, rayon ərazisində fəaliyyət göstərən təhsil müəssisələrindən 120 min manat, "Azbiyan" Məhdud Məsuliyyətli Cəmiyyətindən 71 min manat məbləğində vəsaiti rüşvət qismində istəyərək almalarına əsaslı şübhələr müəyyənləşdirilib.

Qeyd edilənlərə əsasən, avqustun 19-da Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən Kürdəmir Rayon İcra Hakimiyyətinin inzibati binasında, habelə rayonun Suvarma sistemləri və Yaşıllaşdırma idarələrində, Kommunal Müəssisələri Kombinatında və Kürdəmir şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyində əməliyyat-istintaq tədbirləri keçirilib, görülmüş tədbirlər nəticəsində həmin şəxslər tutulublar. Ceyhun Cəfərov, Tacəddin Novruzov və Natiq Kərimov Cinayət Məcəlləsinin 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda), 311.3.1-ci (rüşvət alma qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə), 311.3.2 (rüşvət alma təkrar törədildikdə) və 311.3.3-cü (rüşvət alma külli miqdarda törədildikdə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində Binəqədi Rayon Məhkəməsinin müvafiq qərarları ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda Kürdəmir Rayon İcra Hakimiyyətinin tabeliyindəki qurumlarda və rayon ərazisində fəaliyyət göstərən digər qurumların fəaliyyətində yol verilmiş qanun pozuntularının araşdırılması istiqamətində istintaq-əməliyyat tədbirləri davam etdirilir. İş üzrə təqsirləndirilən şəxslərin dairəsinin dəqiq müəyyənləşdirilərək cinayət məsuliyyətinə cəlb edilmələri və istintaqın nəticəsi barədə ictimaiyyətə əlavə məlumat verilməsi təmin olunacaq.

# Azərbaycanın və Qazaxıstanın Baş prokurorluqları arasında səmərəli əməkdaşlıq davam etdirilir

Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən milli qanunvericiliyin və tərəfdar çıxdığımız beynəlxalq müqavilələrin, o cümlədən "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" Kişineu Konvensiyasının tələblərinə əsasən, Qazaxıstan Respublikasının Baş Prokurorluğu ilə ikitərəfli münasibətlər çərçivəsində ölkəmizdə və Qazaxıstan ərazisində cinayət törətmiş şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsindən ötrü ekstradisiya olunmaları barədə qarşılıqlı sorğular edilib. Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Əflatun Quliyevin təkrarən tamah niyyəti ilə tanışı Elnur Talıbov ilə qabaqcadan əlbir olan bir qrup şəxs halında razılığa gələrək Afət Qasımovaya xeyli miqdarda maddi ziyan vurmaqla özgə əmlakını gizli talamasına, Emin Qaraşovun özgə əmlakını qəsdən məhv etməsinə və bununla da zərərçəkmiş şəxslərə xeyli miqdarda ziyan vurmasına əsaslı şübhələr müəyyənləşdirildiyinə görə həmin şəxslər təqsirləndirilən şəxs qismində cəlb edilməklə barələrində beynəlxalq axtarış elan olunub.

Axtarışda olan şəxslərin yerlərinin müəyyənləşdirilməsi əsası ilə Azərbaycan Respublikasının Baş Prokurorluğunun Qazaxıstan Respublikasının Baş Prokurorluğu ilə qarşılıqlı sorğuları təmin edilməklə Əflatun Quliyev Azərbaycan Respublikasına, Emin Qaraşov isə Qazaxıstan Respublikasına ölkəmizin Daxili İşlər Nazirliyinin xüsusi konvoyunun müşayiəti ilə ekstradisiya ediliblər.

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 37 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə atəşkəs rejimini 37 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Azərbaycan Respublikasının Tovuz rayonunun Ağdam, Ağbulaq, Muncuqlu kəndlərində, Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə, Vayk rayonunun Barsruni kəndindən yerləşən mövqelərdən Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Yarımca, Ağdam rayonunun Novruzlu, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Biz birlikdə güclüyük!

# Azərbaycan virusla mübarizədə irəlidədir

## Ölkəmiz qlobal pandemiyaya qarşı ən ciddi tədbirlər görən dövlətlər sırasındadır

*Əvvəli 1-ci səh.*





İlk olaraq səhiyyə infrastrukturu pandemiya ilə mübarizəyə istiqamətləndirildi. Bütün xəstələrin müalicəsi dövlət hesabına həyata keçirildi. Azərbaycan həkimlərinin xarici həmkarları ilə təcrübə mübadiləsi aparmaları üçün Türkiyə, Rusiya, Kuba və Çindən tanınmış tibb mütəxəssislərinin ölkəmizə müxtəlif müddətli səfərləri təşkil olundu.

### Tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin verilməsi oktyabrın 1-dək uzadıldı

Yeri gəlmişkən, koronavirusla mübarizədə böyük fədakarlıq göstərən həkimlərimizin zəhməti və əziyyəti dövlət tərəfindən yüksək qiymətləndirilir. "Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli qərarı və ötən gün qərara edilən dəyişiklik bunun daha bir nümunəsidir. Qərardakı dəyişikliyə görə, COVID-19 infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavə cari ilin iyul, avqust və sentyabr ayları üzrə də iş vaxtına mütənasib olaraq ödəniləcək.

Qüvvədə olan qərara əsasən, COVID-19 infeksiyası ilə əlaqəli əmək şəraitinə görə dövlət tibb müəssisələrində çalışan işçilərin əməkhaqlarına müddətli əlavənin məbləği aşağıdakı kimi müəyyən edilib:

- tibbi profilaktik tədbirləri həyata keçirən işçilərə - aylıq vəzifə (tarif) maaşının 3 misli məbləğində;
- təcili tibbi yardım xidməti göstərən tibb işçilərinə, həmçinin bioloji materialın müayinəsi ilə məşğul olan laboratoriya işçilərinə, o cümlədən Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin və Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun işçilərinə - aylıq vəzifə (tarif) maaşının 4 misli məbləğində;
- pasiyentlərə stasionar tibbi xidmət göstərən işçilərə - aylıq vəzifə (tarif) maaşının 5 misli məbləğində.

Qeyd edək ki, dövlət tibb müəssisələri COVID-19 infeksiyası ilə əlaqəli əmək şəraitinə görə çalışan tibb işçilərinin siyahılarını İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə (Agentlik) təqdim etdikdən sonra iyul ayı üzrə əməkhaqlara müddətli əlavənin ödənilməsinə başlanılacaq.

Sözügedən qərara uyğun olaraq Agentlik tərəfindən yeni növ koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb və qeyri-tibb işçilərinə 2020-ci ilin mart, aprel, may və iyun ayları üzrə iş vaxtına mütənasib olaraq ümumilikdə 58.3 milyon manat məbləğində müddətli əlavə ödənilib. Belə ki, mart ayı üzrə infeksiya ilə mübarizə tədbirlərində iştirak edən 24 388 nəfər tibb və qeyri-tibb işçisinə iş vaxtına mütənasib olaraq 11.7 milyon manat, aprel ayı üzrə infeksiya ilə mübarizə tədbirlərində iştirak edən 13 245 nəfər tibb və qeyri-tibb işçisinə iş vaxtına mütənasib olaraq 14.1 milyon manat, may ayı üzrə infeksiya ilə mübarizə tədbirlərində iştirak edən 11 638 nəfər tibb və qeyri-tibb işçisinə iş vaxtına mütənasib olaraq 14.3 milyon manat, iyun ayı üzrə isə 14 767 nəfər tibb və qeyri-tibb işçisinə iş vaxtına mütənasib olaraq 18.2 milyon manat müddətli əlavələr ödənilib.





### Ölkəmiz əldə edilən müsbət nəticələrə görə dünyada ön sıralardadır

Dövlət tərəfindən pandemiyadan zərər çəkən insanların maddi və mənəvi cəhətdən dəstəklənməsi, ölkə iqtisadiyyatına dəyən ziyanın aradan qaldırılması üçün də mühüm tədbirlər həyata keçirilib. Ölkə əhalisinin təqribən yarısını - 5 milyon nəfəri əhatə edən məşğulluq və sosial rifaha dəstək tədbirlər planı icra olunub. Dövlət sektorunda çalışan 900 min nəfərin 80 faizi işə çıxmasa da iş yeri saxlanılıb və əməkhaqları ödənilib. Dövlətin dəstəyi sayəsində özəl sektorun rəhbərləri 760 min nəfərin işsizliklə üzləşməsinin qarşısını alıblar. İşsizlər və xüsusi karantin rejiminə görə gəlirini itirən qeyri-formal işləyən şəxslər üçün 190 manat (yaşayış minimumu) birdəfəlik ödəmə verilib.

Prezident çıxışlarında dəfələrlə vurğulayıb ki, qəbul edilən bütün qərarların arxasında məhz əhalinin sağlamlığı, rifahı, təhlükəsizliyinin təmini dayanır. Çünki Azərbaycan dövləti üçün ən prioritet məsələ vətəndaşların həyatı, sağlamlığıdır. COVID-19 infeksiyasının geniş yayılmasının qarşısının alınması ilə əlaqədar görülən işlər vətəndaşların təhlükəsizliyinin təmin edilməsi, Azərbaycanın hər bir sakininin sağlamlığının qorunması məqsədini daşıyır. Məhz dövlət başçısı İlham Əliyevin rəhbərliyi və ciddi nəzarəti altında pandemiyaya qarşı həyata keçirilən operativ, məqsədyönlü tədbirlər infeksiyanın yayılmasını mümkün qədər məhdudlaşdırmağa, sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamağa imkan verib, kütləvi yoluxmanın qarşısını alıb. Dövlət rəhbərinin tapşırığı altında pandemiyaya qarşı vaxtında görülmüş preventiv tədbirlər sayəsində Azərbaycan dünyanı bürümüş virusa qarşı mübarizədə ən ciddi tədbirlər görmüş ölkələr sırasında qərarlaşıb. Digər ölkələrin statistikalarına, virusa yoluxanlarla, ölənlərin sayına nəzər yetirdikdə, eləcə də Ümumdünya Səhiyyə Təşkilatının rəyinə əsasən, demək olar ki, ölkəmiz virusla mübarizədə irəlidə, əldə edilən müsbət nəticələrə görə ön sıralardadır.

Xəstəliyin aşkarlanmasında olduqca əhəmiyyətli olan testlərin keçirilməsi istiqamətində də ölkəmizdə uğurlu addımlar atılıb. Məlumdur ki, yoluxmuş şəxslərin zamanında aşkarlanıb düzgün müayinə edilməsi virusla mübarizədə mühüm əhəmiyyət kəsb edir. Məhz test vasitəsilə yoluxan insanları təcrid etmək, ünsiyyətdə olduqları şəxsləri müəyyənləşdirmək və nəticədə yeni yoluxmaların qarşısını almaq mümkündür. Ötən müddət ərzində ölkədə aparılan testlərin sayı artıq 850 mini ötüb. Adambaşına düşən testlərin sayına görə bu gün Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir.

### Seroloji testlərin aparılması tibbi baxımdan çox əhəmiyyətlidir

Bu həftənin əvvəlindən isə ölkəmizdə yeni növ koronavirus infeksiyası ilə mübarizə strategiyasının əsas hissəsini təşkil edən seroloji testlərin keçirilməsinə başlanılıb. Testlərin aparılmasında əsas məqsəd əhali arasında COVID-19 xəstəliyinin keçirilməsi haqqında təsəvvürlərin əldə olunması, xəstəliyi keçirmiş şəxslərdə yaranmış immunitet səviyyəsinin öyrənilməsidir. Bəzi hallarda infeksiyanın simptomsuz keçməsi ayrı-ayrı adamlarda ona yoluxub-yoluxmadığı barədə şübhə oyadır. Məhz seroloji testlər xəbərsiz olaraq infeksiya keçirənlərdə immunitetin formalaşıb-formalaşmadığını müəyyən etməyə imkan verir. İnsan viruslara yoluxduqdan sonra bədəndə qoruyucu zülallar - anticisimlər yaranır. Viruslara qarşı anticisimlərin formalaşması üçün müəyyən vaxt tələb olunur. Digər tərəfdən, formalaşmış immunitetin bədəndə qalması daimi deyil, müvəqqəti ola bilər. Ona görə də seroloji testlərin ən qısa müddətdə aparılması və nəticələrin əldə olunması zəruridir. Bu testlər vasitəsilə son 3 ay ərzində xəstəlik keçirmiş, immunitet qazanmış insanların sayını müəyyənləşdirmək mümkün olacaq.

Xüsusi proqram vasitəsilə Bakı, Sumqayıt və Gəncə şəhərlərində 1650 nəfərə yaxın könüllü seroloji testə cəlb olunacaq və həmin qrup əhalinin neçə faizində immunitetin formalaşma səviyyəsi aşkar ediləcək. Bu məqsədlə təsadüfi seçilmiş şəxslərə çağrı mərkəzindən zəng ediləcək, testdən keçməyə razılıq vermiş şəxsin evinə yaşadığı ərazi üzrə poliklinikadan xüsusi təlim keçmiş tibb bacısı göndəriləcək. Müayinə üçün venadan 3-5 ml qan nümunəsi götürüləcək. Alınmış qan nümunələri qısa müddətdə laboratoriyaya çatdırılaraq analizdən keçiriləcək. Analiz verən hər bir könüllü öz nəticəsini əldə edə biləcək. Bundan əlavə, vətəndaşın arzusu ilə qanın ümumi analizi də həyata keçirilə bilər. Bu, təkcə tibbi baxımdan deyil, eyni zamanda könüllü olaraq testlərə cəlb edilənlər üçün də əhəmiyyətli məlumatdır. Vətəndaşlar hazırkı durumları barədə bilgi əldə etmək, özləri üçün koronavirus təhlükəsini qiymətləndirmək imkanı qazanacaqlar. Buna görə də müraciət olunan hər bir şəxs özü bu tədqiqatda iştirak etməkdə maraqlı olmalı, özünün, yaxınlarının, ümumilikdə cəmiyyətimizin sağlamlığının qorunması üçün seroloji testlərdə həvəslə iştirak etməlidir.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Karantin rejimini pozaraq evində məclis quran şəxs cəzalandırılıb

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən ölkə ərazisində koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə həyata keçirilən tədbirlər Qazaxda da davam etdirilir. Belə ki, xüsusi karantin rejimi qaydalarına əməl edilir, Operativ Qərargahın tələb və tövsiyələri icra olunur.

Bu məqsədlə Qazax Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə şəhər və kəndlər üzrə hər birinin tərkibi 5 nəfərdən ibarət olan 30 mobil qrup da fəaliyyət göstərir. Tərkibində bir nəfər Daxili İşlər Nazirliyinin əməkdaşı olmaqla, Qazax Rayon İcra Hakimiyyəti başçısı aparatının, RİHB-nin İnzibati Ərazi Dairələri üzrə nümayəndəliklərin, bələdiyyələrin və digər qurumların nümayəndələrindən ibarət yaradılmış mobil qrupun üzvləri rayon ərazisində xüsusi karantin rejiminin tələblərinin yerinə yetirilməsinə ciddi nəzarət edir.

Qeyd edək ki, əhalinin sağlamlığının qorunması, infeksiyanın yayılmasının və onun törədə biləcəyi fəsadların qarşısının alınması ilə bağlı maarifləndirmə işləri də aparır və bu məqsədlə reydlər keçirilir. Rayonda xüsusi karantin rejimi qaydalarını pozan vətəndaşlar haqqında ciddi tədbirlər görülür. Vətəndaşların kafe və restoranlarda, eləcə də yaşadıqları evlərin həyətində kütləvi şəkildə toplaşaraq gizli şəkildə toy, nişan, ad günü mərasimləri keçirmələrinin, həmçinin yas mərasimlərinin təşkil olunmasının qarşısının alınması istiqamətində də təxirəsalınmaz tədbirlər həyata keçirilir.



Avqustun 15-də keçirilən növbəti reyd zamanı Qazax rayon Kosalar kənd sakini Zeynəb Qurbanovanın xüsusi karantin rejiminin qaydalarını pozaraq nəvəsinə kiçik toy məclisi təşkil etməsi məlum olub. Polis əməkdaşları tərəfindən məclis dərhal dayandırılıb. Z.Qurbanova barəsində Qazax Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən İnzibati Xətalar Məcəlləsinin (İXM) 211-ci maddəsi (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) ilə protokol tərtib olunaraq o, cərimə edilib.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Aşura mərasiminin izdihamla keçirilməsi virusun geniş yayılmasına səbəb ola bilər

Aşura ilə əlaqədar kütləvi dini tədbirlərin, ayinlərin keçirilməsi ölkədə koronavirusla mübarizədə əldə edilmiş uğurlara zərbə vura, virusun geniş yayılmasına, vəziyyətin yenidən pisləşməsinə, karantin rejiminin daha da uzanmasına və ya yenidən sərtləşdirilməsinə səbəb ola bilər.



Bu fikri Ağdam rayon Xındırıstan kənd məscidi dini icmasının sədri Barat Bağırov AZƏRTAC-a müsahibəsində deyib. O bildirib ki, dövlətimiz tərəfindən pandemiyanın qarşısının alınması, vətəndaşların təhlükəsizliyi və sağlamlığının qorunması üçün lazımi tədbirlər görülür. Bütün dünyada, o cümlədən Azərbaycanda xəstəliyin geniş yayılmaması üçün kütləvi tədbirlər qadağan olunub. Lakin təəssüf ki, xəstəliyə yoluxma halları davam etməkdədir. Odur ki, hər bir vətəndaş, o cümlədən dindarlar Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi qayda və tələblərə əməl etməli, kütləvi mərasimlər təşkil olunmamalıdır.

Bu il pandemiya ilə əlaqədar Azərbaycanda Ramazan və Qurban bayramları ilə əlaqədar məscidlərdə ənənəvi bayram namazlarının da qılınmadığını qeyd edən dini icmanın sədri xalqımızın hazırkı çətinliyi geridə qoyacağına, dini tədbirlərini növbəti illərdə davam etdirəcəyinə əminliyini bildirib.

*Xaçmaz "Təzə Şəhər" məscidinin axundu:*

# "Pandemiya başa çatandan sonra yenə də dini mərasimlərimizi yüksək səviyyədə qeyd edəcəyik"

Xaçmazlı möminlər bu il koronavirusla bağlı yaranmış olduqca təhlükəli və riskli şəraitə görə dini mərasimlərlə bağlı verilən qərarları anlayışla və həmrəyliklə qarşılayırlar. Ölkəmizdəki epidemioloji vəziyyət nəzərə alınmaqla, bu il Azərbaycanda Ramazan və Qurban bayramları ilə əlaqədar məscidlərdə ənənəvi bayram namazları qılınmayıb. Hətta islamın vacib şərtlərindən biri olan Həcc ziyarəti dayandırılıb. Belə olan vəziyyətdə Aşura mərasiminin məscidlərdə qeyd olunmamasını da anlayışla qarşılamalıyıq. Bu, kütləvi tədbirlərlə əlaqədar bu vaxta qədər verilmiş qərarların məntiqi davamıdır. Azərbaycan dövləti əhalinin sağlamlığının və təhlükəsizliyinin təmin edilməsi məqsədilə bu addımları atır.

Bu fikirləri AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində Xaçmaz "Təzə Şəhər" məscidinin axundu Yaşar Rzayev söyləyib.

Yaşar Rzayev bildirib ki, hazırda dünya çətin sınaqdan keçir. Bu imtahandan üzüağ çıxmaq üçün vətəndaşlarımız həmrəylik göstərməli, verilən qərarlara diqqətlə əməl etməlidirlər.



"Bu bəşəri bəlanın təhlükəsi səngiməyib. Biz görürük ki, bir sıra ölkələrdə pandemiyanın ikinci dalğası başlayıb. Bəzi ölkələrdə dini ibadət yerlərinin kütləvi tədbirlər üçün açılması epidemioloji vəziyyətə olduqca mənfi təsir göstərir. Biz bundan nəticə çıxarmalı, eyni nöqsanlara yol verməməliyik. İnşallah, bu xəstəliyə tezliklə qalib gələcək, pandemiya başa çatandan sonra yenə də dini mərasimlərimizi yüksək səviyyədə qeyd edəcəyik", - deyə din xadimi söyləyib.

# Səhiyyə Nazirliyi tərəfindən yeni "Video Doktor" adlı mobil tətbiq istifadəyə verilib

Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) tərəfindən "Ezgil Medical Technologies" şirkətinin tərəfdaşlığı və BMT-nin İnkişaf Proqramının (UNDP) dəstəyi ilə "Video Doktor" distant tibbi konsultasiyaların həyata keçirilməsi üçün nəzərdə tutulmuş mobil tətbiqi hazırlanıb və istifadəyə verilib.




Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, milli texnoloji "start-up"ın məhsulu olan bu tətbiq COVID-19 pandemiyası dövründə tibb işçiləri və pasiyentlərin sağlamlığını qorumaq üçün aralarında yaxın təmasların azaldılması, vətəndaşların vaxtında və keyfiyyətli tibbi yardımla təmin olunması üçün hazırlanıb. Eyni zamanda, tətbiq xroniki xəstəliklərdən əziyyət çəkən və hazırda tibb müəssisələrinə gəlməkdə çətinlik çəkən pasiyentlərə tibbi diqqətdən kənarda qalmamaq imkanını yaradıb.

Yeni istifadəyə verilmiş "Video Doktor" tətbiqindən istifadə həm həkim, həm də pasiyentlər üçün olduqca rahat və asandır. Tətbiqin köməyi ilə hər bir xəstənin tibbi kartı yalnız poliklinikalara deyil, həmçinin stasionar tibb müəssisələrinə də inteqrasiyası mümkün olur. Bu xəstəliyin gedişatı və müalicə prosesini izləmək üçün imkan yaradır. Üstəlik, burada həkim tərəfindən xəstəyə yazılan bütün reseptlərlə də tanış olmaq mümkündür.

Onu da qeyd edək ki, bu mobil proqramın vasitəsilə xəstə qəbul vaxtını təyin etmək və ya müalicə ilə əlaqəli məsələlərə aydınlıq gətirmək üçün istənilən zaman həkimi ilə əlaqə saxlaya bilər. Bundan başqa, xəstə öz mövcud vəziyyəti, yəni temperaturu, nəbzi, təzyiqi, qan şəkəri səviyyəsi haqqında məlumatı əldə edib, sonra onu müalicə edən həkiminə göndərə bilər. Həkimlər, öz növbəsində pasiyentlərinin xəstəxanadan çıxdıqdan sonra belə vəziyyətlərini izləyə bilərlər. Yerləşdiyi nöqtədən asılı olmayaraq, dünyanın istənilən yerindən hər hansı bir tətbiq istifadəçisi özü haqqında məlumatları xaricdə yerləşən istənilən klinikaların həkimləri ilə asanlıqla bölüşə bilər. "Video Doktor" mobil proqramı, həmçinin xəstələr üçün analiz cavabları, rentgen nəticələri, peyvəndlər və digər məlumatların hər zaman "əl altında" olmasını təmin edir. Eyni zamanda, həkimlər istənilən zaman bu tətbiqə daxil olub, xəstənin məlumat bazasını bir-birlərinə göndərib, tətbiqin daha bir faydalı funksiyasından yararlanaraq diaqnoz və müalicə yollarını onlayn şəkildə aralarında müzakirə edə bilərlər.

Evdə müalicə alan COVID-19 pasiyentlərinin müşahidəsi və müvafiq qayğı ilə əhatə olunması üçün Bakı şəhərinin poliklinikalarında uğurlu sınaqlardan keçmiş mobil tətbiqin digər dövlət və özəl tibb müəssisələri tərəfindən istifadə olunması nəzərdə tutulub. Beləliklə, fərdi həkimlərin "Video Doktor"dan yararlanması pandemiya dövründə təmasların, xüsusilə də tibb işçiləri və yüksək risk qrupuna aid xroniki xəstəlikləri olan pasiyentlərin yoluxma riskinin azaldılmasında əhəmiyyətli rol oynayır. Eyni zamanda, "Video Doktor" mobil tətbiqi tibbi xidmətlərin daha əlçatan olmasına kömək edir. Bu daha çox ölkənin ucqar kəndlər və qəsəbələrində yaşayan vətəndaşlar tərəfindən keyfiyyətli səhiyyə xidmətlərinin əldə edilməsinə aiddir.

Qeyd edək ki, artıq istifadəyə verilmiş "Video Doktor" mobil tətbiqi istənilən Android və iOS əməliyyat sistemli cihazlara müvafiq olaraq Google Play (Play Market) və AppStore-dan asanlıqla yüklənilə bilər.

# Azərbaycanda koronavirus infeksiyasından daha 148 nəfər sağalıb, 139 yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 148 nəfər sağalıb, 139 yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, hazırkı dövrədək ölkəmizdə 34 min 759 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 32 min 511 nəfər müalicə olunaraq sağalıb, 510 nəfər vəfat edib. Aktiv xəstə sayı 1738 nəfərdir.

Ötən müddət ərzində 855 min 802 test aparılıb. Dünənki test sayı isə 6174-dür.



# İŞİMİZ, GÜZƏRANIMIZ

## İkinci maliyyə dəstəyi proqramı çərçivəsində muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsinin ödənilməsinə başlanılıb

Prezidentin tapşırığına və Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən pandemiyadan zərər çəkmiş sahələrdə çalışan vergi ödəyicilərinin muzdlu işçilərinə ikinci maliyyə dəstəyi proqramı çərçivəsində vəsait köçürülməsinə başlanılıb.

Maliyyə dəstəyi pandemiyadan zərər çəkmiş sahələrdə çalışan, birinci maliyyə dəstəyi proqramı çərçivəsində vəsait almış və dövlət başçısının çağırışına cavab olaraq, işçi saylarında ciddi azalmalara yol verməmiş vergi ödəyicilərinə 1 iyul 2020-ci il tarixinə olan işçi sayı əsas götürülməklə bir aylıq əməkhaqqı fondu həcmində göstərilir və avqust və sentyabr aylarını əhatə etməklə 2 mərhələdə bərabər hissələrlə ödəniləcək.

Xəbər verildiyi kimi, maliyyə dəstəyinin ikinci mərhələsi çərçivəsində vergi ödəyicilərinin yenidən müraciət etmələrinə ehtiyac yoxdur. Avqustun 19-u tarixinə 2-ci mərhələ çərçivəsində 228.175 muzdlu işçini əhatə edən 22.603 vergi ödəyicisinin bank hesablarına ilkin olaraq 50,38 mln. manat köçürülüb.

Maliyyə dəstəyi proqramının ikinci mərhələsində ödənişlə əhatə olunmuş muzdlu işçilərin sayı birinci mərhələdə vəsait almış muzdlu işçilərin sayından 12.177 nəfər çoxdur ki, bu da şəffaflaşdırma nəticəsində əmək müqavilələri bağlamış işçi saylarının artması ilə əlaqədardır.

Bununla yanaşı, aprel-may-iyun ayları ərzində işçilərinin hamısını (1666 nəfər) ixtisar etmiş 553 vergi ödəyicisinə və işçilərinin sayında ciddi azalmalara yol vermiş 374 vergi ödəyicisinə maliyyə dəstəyi göstərilməsindən imtina olunub.

Xatırladaq ki, indiyədək maliyyə dəstəyi proqramları çərçivəsində 107.191 fərdi (mikro) sahibkara 76 mln. manat məbləğində birdəfəlik maliyyə dəstəyi göstərilib.

## “Sosial Bağlar” layihəsinin icrası davam edir



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyinin birgə həyata keçirdiyi “Sosial Bağlar” layihəsinə cəlb olunmaq üçün müraciətlərin qeydiyyatı davam edir.

Özünüməşğulluq proqramına dəstək məqsədilə icra edilən layihəyə bağçılıq üçün əlverişli şəraiti olan 16 rayon (Astara, Balakən, İsmayıllı, Lənkəran, Oğuz, Qəbələ, Quba, Qusar, Şabran, Şamaxı, Şəki, Şəmkir, Siyəzən, Xaçmaz, Yevlax, Zaqatala) cəlb olunub.

Həmin rayonlarda mülkiyyətində kənd təsərrüfatına yararlı pay torpağı olub, digər məşğulluğu olmayan şəxslər qeydiyyatdan keçmək üçün müvafiq Ərazi Məşğulluq Mərkəzinə müraciət edə bilərlər. Layihəyə cəlb edilən namizədlərin qiymətləndirilməsi zamanı onların aztəminatlılıq meyarlarına uyğunluğu və torpağın bağçılıq üçün yararlı olması əsas götürülür.

Daxil olan müraciətlər əsasında 250 aztəminatlı ailə seçilərək ilk növbədə onlara məxsus torpaq sahələrində monitorinqlər aparılacaq. Ehtiyaclar müəyyən edildikdən sonra həmin sahələrdə intensiv bağ təsərrüfatları salınacaq.

## «Şəfəq-Asiman» blokunda ilk kəşfiyyat quyusu qazılır



Qazma işləri strukturun ehtiyatlarının dəqiqləşməsinə imkan verəcək

Əvvəli 1-ci səh.

2012-ci ildə bu müqavilə sahəsində üçölçülü seysmik tədqiqat proqramı həyata keçirilib. Seysmik məlumatların interpretasiyası 2015-ci ildə tamamlanıb. Sonra isə ilk quyunun yeri seçilib və qazma fəaliyyətləri planlaşdırılıb.

Sözügedən SAX01 quyusu “Şəfəq-Asiman” müqavilə sahəsində qazılan ilk quyudur. Bu, blokun işlənməsində irəliyə doğru bir addım, mühüm bir mərhələdir. Belə ki, qazma işləri strukturun ehtiyatlarının dəqiqləşməsinə imkan verəcək.

Cari il avqustun 10-da “Qarabağ” yatağında quraşdırılacaq stasionar dəniz özülünün əsas hissələrindən birinin - dayaq blokunun Xəzərə yola salınmasında iştirak edən Prezident İlham Əliyev qurğu ilə tanışlıqdan sonra Azərbaycan Televiziyasına verdiyi müsahibədə bu barədə demişdir:

“Şəfəq-Asiman” yatağı üzrə işlər qrafik üzrə gedir. İndi qazma işləri aparılır. Bu yatağın da çox böyük potensialı var. Əlbəttə, qazma işləri ehtiyatların dəqiq həcmini göstərəcək. Ancaq yadımdadır ki, hələ Neft Şirkətində işlədiyim dövrdə bizim mütəxəssislər orada təqribən 400-500 milyard kubmetr həcmində qaz ehtiyatının mövcudluğunu qeyd etmişdilər. Hər halda hesab edirəm ki, qazma işləri yaxın gələcəkdə başa çatacaq və bu haqda daha dəqiq məlumat olacaqdır”.

SAX01 quyusu “Caspian Drilling Company” (CDC) tərəfindən idarə olunan Heydər Əliyev adına yarımdalma qazma qurğusu vasitəsilə qazılır. Qazma zamanı təzyiqi tam idarə etmək imkanlarına malik olan bu qurğu “Şəfəq-Asiman”da iş aparmaq üçün hələ keçən ilin noyabr ayında CDC-dən müqavilə əsasında götürülüb. Qurğu həmin vaxtdan quyunun qazıldığı yerə gətirilib.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz qazma işlərinə başlanmazdan əvvəl də bəyan etmişdi ki, bu dəniz blokunun irimiqyaslı qaz ehtiyatlarının kəşfi üçün xeyli potensialı var. Qazma proqramının təhlükəsiz və etibarlı şəkildə həyata keçirilməsini təmin etmək məqsədilə əvvəlcədən böyük hazırlıq işləri aparılıb.

*Flora SADIQLI,*
*“Azərbaycan”*

## “Azertexnolayn” MMC yeni məhsul istehsalına başlayıb

Sumqayıt Kimya Sənaye Parkının rezidenti olan “Azertexnolayn” MMC-də yeni növ məhsulun - avtodayanacaqlarda istifadə olunan çuqun töküm yağış barmaqlıqların istehsalına başlanılıb.

Məhsul Rusiya Federasiyasının sifarişi ilə hazırlanır.

Qeyd edək ki, “Azertexnolayn” MMC-də qabaqcıl texnologiyalar əsasında müxtəlif diametrli polad borular, yüksək təzyiqə davamlı hidrotexniki avadanlıqlar, xüsusi təyinatlı müxtəlif diametrli polietilen borular istehsal edilir. İstehsal edilən məhsullar ölkə daxilində istifadə olunmaqla yanaşı, bir sıra xarici ölkələrə də satılır.

## “Ticarətə Hazır” layihəsinin ikinci hissəsi başa çatıb

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin “Azexport.az” portalının “ITC” (International Trade Center) ilə birlikdə “Ticarətə Hazır: e-Logistics” layihəsi çərçivəsində 4-14 avqust 2020-ci il tarixlərində keçirilən təlimləri yekunlaşıb.

Azexport.az portalının rəhbəri Ayxan Qədəşov bildirib ki, “Zoom” tətbiqi vasitəsilə onlayn olaraq həyata keçirilən təlimə ümumilikdə 150-dən artıq sahibkar qatılıb. Təlimlər əsasən Sinqapur Loqistika Assosiasiyasının idarə heyətinin üzvü, ASEAN-nın və digər nüfuzlu qurumların nümayəndəsi olan EE Khong Kie, Max tərəfindən tədris olunub. İngilis dilində tədris edilən təlimlər sinxron olaraq Azərbaycan dilinə də tərcümə olunub. Təlim ərəfəsində iştirakçılara logistika əməliyyatları, logistika infrastrukturu, COVID-19 dövründə logistikanın təşkili, həmçinin beynəlxalq logistikanın sinifləndirilməsinə dair geniş məlumatlar təqdim edilib.

Qeyd edək ki, təlimlərdə 70 faizdən artıq iştirak göstəricisi olan 39 iştirakçıya “QR kod” qorunma nişanı ilə təchiz olunmuş elektron sertifikat verilib.

## Muzdla işləyənlərin sayı 1,6 milyon nəfərdən çoxdur

İyulun 1-nə muzdla işləyənlərin sayı 1695,1 nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 922,1 min nəfər, qeyri-dövlət sektorunda isə 773 min nəfər təşkil edib.

Dövlət Statistika Komitəsindən bildirilib ki, iqtisadiyyatın neft-qaz sektorunda 34,1 min nəfər, qeyri neft-qaz sektorunda isə 1661 min nəfər çalışıb. Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 24,7 faizi məhsul istehsalı sahələrində, o cümlədən 8,2 faizi tikintidə, 7,5 faizi emal sənayesində, 3,5 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 2 faizi mədənçıxarma sənayesində, 1,8 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 1,7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələrində məşğul olub.

Xidmət sahəsində işləyənlərin 19,5 faizi təhsil, 18 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 8 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,6 faizi dövlət idarəetməsi və müdafiə, sosial təminat, 5 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 4,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 3,2 faizi istirahət, əyləncə və incəsənət, 1,7 faizi maliyyə və sığorta fəaliyyəti, 1,7 faizi informasiya və rabitə, 1,5 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,2 faizi digər sahələrdə xidmətlərin göstərilməsi və 1 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar sahələrində çalışıblar.

## Yeddi ayda ölkədə qaz hasilatı və ixracı artıb



Cari ilin yanvar-iyul aylarında operativ məlumatlara əsasən, Azərbaycanda 20,5 milyon ton neft (kondensatla birlikdə) hasil edilib. Neft (kondensatla birlikdə) hasilatı ötən ilin müvafiq dövrü ilə müqayisədə təxminən 1,4 milyon ton azalıb.

Ölkə üzrə hasil edilmiş neftin 14 milyon tonu “Azəri-Çıraq-Günəşli”nin, 2,2 milyon tonu (kondensat) “Şahdəniz”in payına düşüb. SOCAR üzrə hasilat isə 4,3 milyon ton təşkil edib.

Yeddi ayda 16,9 milyon ton neft (kondensatla birlikdə) ixraca nəql olunub. Bu, 2019-cu ilin yanvar-iyul aylarına nisbətən təxminən 1,4 milyon ton, yəni 7,6 faiz azdır. Neft-kondensatın 16,2 milyon tonu konsorsium, 0,7 milyon tonu isə SOCAR üzrə ixraca nəql olunub.

2020-ci ilin 7 ayı ərzində ötən ilin müvafiq dövrünə nisbətən 10 faizdən çox, yəni 2 milyard kubmetr artımla 22,3 milyard kubmetr qaz hasil edilib. Qaz hasilatının 7 milyard kubmetri AÇG-dən, 11 milyard kubmetri isə “Şahdəniz”dən əldə edilib. SOCAR üzrə bu dövrdə 4,3 milyard kubmetr qaz hasil olunub.

Hesabat dövründə xaricə qaz satışı 7,7 milyard kubmetr təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 16,7 faiz çoxdur. Cari ilin yanvar-iyul aylarında 2019-cu ilin müvafiq dövrünə nisbətən Türkiyəyə 24 faiz çox, yəni 6,3 milyard kubmetr qaz ixrac edilib. Gürcüstana ixrac edilən qazın həcmi isə 1,4 milyard kubmetr olub. Qeyd edək ki, TANAP ilə Türkiyəyə bu müddətdə 2,4 milyard kubmetr qaz nəql edilib.

2018-ci ilin iyun ayının 30-dan 2020-ci ilin avqust ayının 1-dək TANAP-la Türkiyəyə təqribən 6,3 milyard kubmetr qaz nəql olunub.

Azəri-Çıraq-Günəşli və “Şahdəniz” yataqları istismara veriləndən avqustun 1-dək ümumilikdə 543,3 milyon ton neft (kondensatla birlikdə) hasil edilib və 542,7 milyon ton neft (kondensatla birlikdə) ixraca nəql olunub.

Bu dövrdə “Azəri-Çıraq-Günəşli”dən 172 milyard, “Şahdəniz”dən isə 127,8 milyard kubmetr qaz hasil edilib. “Şahdəniz” yatağı istismara veriləndən cari ilin 1 avqust tarixinədək 84,7 milyard kubmetr qaz ixraca nəql edilib.

Ölkədə neft emalı isə 2020-ci ilin 7 ayında 3,5 milyon ton təşkil edib. Neft emalı ötən ilin müvafiq dövrünə nisbətən 144 min ton azalıb.

Məlumatı Energetika Nazirliyi açıqlamışdır.

## Külək turbinlərinin tikiləcəyi ərazilərdə 6 ölçü-müşahidə stansiyası quraşdırılıb

Energetika Nazirliyinin Səudiyyə Ərəbistanı Krallığının “ACWA Power” şirkəti ilə imzaladığı icra müqaviləsinə uyğun olaraq, 240 MVt gücündə külək elektrik stansiyasının inşa ediləcəyi ərazilərdə 6 külək ölçü-müşahidə stansiyası quraşdırılıb.

Stansiyaların 3-ü Xızıda, 3-ü isə Abşeron rayonu ərazisində quraşdırılıb. Hündürlüyü 100 metr olan bu stansiyalar vasitəsilə 9-12 ay ərzində külək ölçmələri həyata keçiriləcək və nəticəyə əsasən turbinlərin optimal yerləşməsi müəyyən ediləcək.

Abşeron rayonunun Pirəkəşkül və Xızı rayonunun Sitalçay kəndlərinin dağlıq hissəsində hər biri 6 MVt gücdə olan 40 külək turbin qurğusunun tikilməsi nəzərdə tutulur. Külək Elektrik Stansiyasının Pirəkəşküldəki hissəsində ümumi gücü 102 meqavat olmaqla 17 külək turbini, digər hissədə - Xızı rayonunun Sitalçay kəndinin yaxınlığında yerləşən dağlıq ərazidə isə ümumi gücü 138 MVt olan 23 ədəd külək turbininin quraşdırılması planlaşdırılır.



Külək Elektrik Stansiyası üçün müəyyənləşdirilmiş ərazilərdə topoqrafiya işləri və mühəndis-geoloji tədqiqatlar başa çatdırılıb. Ətraf mühitə sosial təsirlərin qiymətləndirilməsi ilə bağlı tədqiqatlar isə davam etdirilir.

Gücü 200 MVt olan günəş elektrik stansiyası isə Qaradağ və Abşeron rayonları ərazisində inşa olunacaq. Layihə üçün ayrılmış ərazilərdə ətraf mühitə və sosial təsirlərin qiymətləndirilməsi ilə bağlı sorğuların və tədqiqatların aparılmasına hazırlıq gedir.

Xatırladaq ki, 2019-cu il dekabrın 5-də Azərbaycan Prezidenti “Bərpa olunan enerji mənbələrindən istifadə sahəsində pilot layihələrin həyata keçirilməsi tədbirləri haqqında” sərəncam imzalamışdır. 2020-ci il yanvarın 9-da isə Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının “ACWA Power” və Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkətləri arasında bərpa olunan enerji üzrə pilot layihələrin həyata keçirilməsi ilə bağlı icra müqavilələri imzalanıb.

## Azərbaycanın demoqrafik vəziyyəti rəqəmlərdə

Dövlət Statistika Komitəsinin məlumatına görə, ilin əvvəlindən ölkə əhalisinin sayı 28786 nəfər və ya 0,3 faiz artaraq 2020-ci il iyul ayının 1-i vəziyyətinə 10095894 nəfərə çatmışdır.



Əhalinin 52,8 faizini şəhər, 47,2 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir. Hazırda hər 1000 kişiyə 1002 qadın düşür. Bir kvadratkilometrə düşən əhalinin sayı isə 117 nəfərdir.

Cari ilin yanvar-iyun ayları ərzində Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən ölkədə 59356 doğulan körpə qeydə alınmış və əhalinin hər 1000 nəfərinə bu göstərici 12 təşkil etmişdir. Doğulan körpələrin 53,3 faizi oğlan, 46,7 faizi qız uşaqlarıdır. Körpələrdən 1608-i əkiz, 57-si isə üçəm doğulanlardır.

2020-ci ilin yanvar-iyun aylarında ölkədə 31016 ölüm halı qeydə alınmış və əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 6,3 təşkil etmişdir.

Bu ilin birinci yarısında qeydiyyat şöbələri tərəfindən 17841 nikaha daxilolma və 7107 boşanma halları qeydə alınmış və əhalinin hər 1000 nəfərinə nikahların sayı 3,6, boşanmaların sayı isə 1,4 olmuşdur.

Cari ilin yanvar-iyun aylarında Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün Azərbaycana 820 nəfər gələn, Azərbaycandan isə 374 nəfər gedən qeydə alınaraq, miqrasiya saldosu müsbət 446 nəfər təşkil etmişdir.

## Menecerlərin ixtisasının artırılması üzrə Almaniya-Azərbaycan proqramı onlayn formatda həyata keçirilir

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) əlaqələndiricisi olduğu “Azərbaycanın biznes ictimaiyyətində menecerlərin ixtisasının artırılması üzrə Almaniya-Azərbaycan Birgə Proqramı” koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar onlayn formatda davam etdirilir.

KOBİA-dan bildirilib ki, avqustun 17-dən etibarən proqram çərçivəsində onlayn təlimlərə start verilib. Təlimlərdə Azərbaycandan 12 sahibkar və menecer iştirak edir.

Qeyd edək ki, İqtisadiyyat Nazirliyi ilə Almaniyanın Federal İqtisadiyyat və Enerji Nazirliyi arasında imzalanmış anlaşma memorandumuna uyğun olaraq 2009-cu ildən etibarən həyata keçirilən proqram Azərbaycan sahibkarlarının biznes sahəsində beynəlxalq təcrübəyə yiyələnməsi, bilik və bacarıqlarının artırılması məqsədi daşıyır. İndiyədək iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən 442 sahibkar və menecer Almaniyanın tədris mərkəzlərində ödənişsiz ixtisasartırma kursu, müəssisələrdə təcrübə keçib, beynəlxalq təcrübəyə yiyələnib, işgüzar əlaqələrini genişləndirib. Fevralın 17-dən martın 13-dək 20 nəfərdən ibarət qrup Almaniyanın Münxen şəhərində təlim və müvafiq istehsal müəssisələrində təcrübə keçib. Növbəti qrupun 2020-ci ilin iyun ayında Almaniyada ixtisasartırma kursu keçməsi nəzərdə tutulurdu. Lakin pandemiya səbəbindən Almaniyada ixtisasartırma kursunun təşkili müvəqqəti olaraq dayandırılıb.

Elm xadimləri

# Görkəmli ədəbiyyatşünas alim



Azərbaycan ədəbiyyatşünaslıq elminin böyük tarixi ənənələri və görkəmli yaradıcıları olmuşdur. Sistemli ədəbiyyat tarixi məktəbinin banisi və fədakar ədəbiyyat tənqidçisi Firidun bəy Köçərli ilə başlanan bu elmi istiqamətdə XX əsr ərzində Həmid Araslı, Məmməd Arif Dadaşzadə, Məmməd Cəfər Cəfərov, Feyzulla Qasımzadə, Kamal Talıbzadə, Abbas Zamanov, Mir Cəlal Paşayev, Əziz Şərif, Yaşar Qarayev, Əziz Mirəhmədov, Məmmədhüseyn Təhmasib və başqaları kimi adlı-sanlı alimlər yaşayıb-yaratmış, mühüm xidmətlər göstərmişlər. XX əsrin ikinci yarısı və XXI əsrin əvvəlləri Azərbaycan ədəbiyyatşünaslıq elminin inkişafına akademik Bəkir Nəbiyev (1930-2012) özünün çoxcəhətli fəaliyyəti ilə sanballı elmi töhfələr vermiş, böyük ədəbiyyatşünaslıq ənənələrini uğurla davam etdirmişdir.

Görkəmli elm xadimi, akademik Bəkir Nəbiyevin genişmiqyaslı elmi fəaliyyəti Azərbaycanın ədəbiyyatşünaslıq elmi-mədəni və ictimai həyatında əlamətdar hadisə olmuşdur.

Repressiya cəzasına məruz qalmış bir ailə mühitində çətin və məsuliyyətli bir yol keçmiş Bəkir Nəbiyev bütün həyatı boyu özünü zəhmətə qatlaşmaqda, yorulmadan çalışaraq ədəbiyyatşünaslıq elmini inkişaf etdirməkdə və yeni elmi nəsillərin hazırlanmasına xidmət etməkdə tapmışdır. O, 1949-1954-cü illərdə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsində böyük ədəbiyyatşünas alimlərdən dərs almış və müəllimlərinin nümunəsində əsl elm xadimi və şəxsiyyət kimi özünü isbat etmək üçün elm yolunun bütün pillələrini addım-addım keçərək əsl elm adamı kimi formalaşmışdır. O, hələ tələbəlik illərində dövri mətbuatda çap olunan məqalələri ilə elmi ictimaiyyətin diqqətini cəlb etmiş, istedadlı bir ədəbiyyatşünas olacağını nəzərə çarpdırmışdır.

Elmi fəaliyyətə ədəbiyyat tarixçisi kimi başlamış Bəkir Nəbiyev 1960-cı ildə ədəbiyyatşünaslıq elminin əsaslarını yaratmış "Firidun bəy Köçərlinin həyatı və yaradıcılığı" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, filologiya elmləri namizədi elmi dərəcəsini qazanmışdır. Xüsusən onun Firidun bəy Köçərlinin arxivlərdən üzə çıxarıb tədqiqata cəlb etdiyi nadir tərcümeyi-hal sənədləri, məktubları, əlyazmaları və şəkillər elmi mühitdə böyük maraq doğurmuşdur. Bəkir Nəbiyev ilk dəfə olaraq Firidun bəy Köçərlinin birinci ədəbiyyat tariximiz hesab edilən "Azərbaycan ədəbiyyatı tarixi materialları" adlı çoxcildlik kitabını ətraflı şəkildə təhlil edərək bu sanballı işin obyektiv elmi qiymətini vermişdir. Eyni zamanda cavan tədqiqatçı Bəkir Nəbiyevin ustad ədəbiyyatşünas Firidun bəy Köçərlinin ədəbi tənqid sahəsindəki fəaliyyətini, ədəbi prosesə dair məqalələrini yüksək professional səviyyədə təhlil edib qiymətləndirməsi onun bu sahəyə olan xüsusi marağını da diqqətə çatdırmışdır. Firidun bəy Köçərli kimi çoxcəhətli fəaliyyətə malik olan qüdrətli bir ədəbiyyatşünas alimin simasında ədəbiyyat tarixçiliyi və ədəbi tənqid sahələrini araşdırıb təhlil etməklə Bəkir Nəbiyev sonralar bu elmi istiqamətlərin hər biri üzrə sanballı elmi əsərlər yaradıb elmi ictimaiyyətə təqdim etmişdir. Beləliklə, "Görkəmli tənqidçi və ədəbiyyatşünas Firidun bəy Köçərli" monoqrafiyası Bəkir Nəbiyevin ədəbiyyatşünaslıq elmi sahəsindəki istiqamətini müəyyən etmişdir. O, bütün ömrü boyu həm hər iki istiqamətdən hər birinə aid elmi əsərlər yazmış, həm də hansı mövzuda yazmasından asılı olmayaraq, təhlil və dəyərləndirmələrində həmişə ədəbiyyat tarixçiliyi ilə ədəbi tənqidin üzvi sintezinə xüsusi şəkildə əməl etmişdir. Buna görədir ki, Bəkir Nəbiyevin müxtəlif illərdə çap etdirdiyi ədəbi şəxsiyyətlərin portretlərini əks etdirən "Əhməd Cavad" (1993), "Almas İldırım" (1994), "İstiqlal şairi Xəlil Rza Ulutürk" (2001), "El ağsaqqalı, elm fədaisi İmamverdi Əbilov" (2007) kimi kitablarında ədəbiyyat tarixçiliyinə üstünlük verməklə yanaşı, həm də bu yaradıcı şəxsiyyətlərin əsərlərini ədəbi tənqidin süzgəcindən keçirməklə qiymət vermişdir. Bəkir Nəbiyevin ədəbiyyat tarixi istiqamətində yazdığı monoqrafik tədqiqatlarda və məqalələrdə tarixçilik ədəbi şəxsiyyətinə təkamül proseslərini göstərmək üçün güzgü, tənqidçilik isə yazıçı və şairlərin özünəməxsus obrazını canlandırmaq baxımından əsas meyar olmuşdur. Ədəbi şəxsiyyətə bu cür yanaşma akademik Bəkir Nəbiyevin ədəbiyyat tarixçiliyi tədqiqatlarını ədəbiyyatın tarixini öyrənməklə məşğul olan digər tədqiqatçıların elmi əsərlərindən fərqləndirmişdir. Bəkir Nəbiyevin haqqında ilk dəfə kitablar çap etdirdiyi görkəmli şair və yazıçılar barədəki araşdırmaları həmin sənətkarlara dair əsas elmi mənbələr kimi qəbul olunmuşdur.

Bununla belə akademik Bəkir Nəbiyevin elmi fəaliyyətində hələ elmlər namizədliyi dövründən başlayaraq tədricən ədəbiyyat tənqidçiliyi üstünlük təşkil etməyə başlamışdır. Bəkir Nəbiyev görkəmli bir tənqidçi kimi ədəbiyyat tarixçiliyi baxımından möhkəm təməllər üzərində yaranan böyük ədəbiyyatın problemlərini araşdırıb, müasirlik işığında qiymətləndirməyə daha çox diqqət yetirmişdir. "Böyük Vətən müharibəsi və Azərbaycan ədəbiyyatı" mövzusunda yazdığı doktorluq dissertasiyasında və eyniadlı monoqrafiyasında (1977) Bəkir Nəbiyev məlum tarixin yığcam mənzərəsini verməklə kifayətlənərək, daha çox bu böyük tarixi hadisənin doğurduğu ədəbiyyatın mahiyyətinin və əhəmiyyətinin şərh olunmasına çalışmışdır. Bu sanballı elmi-tədqiqat əsərində Böyük Vətən müharibəsi dövrünün və sonralar bu mövzuda yazılmış ədəbiyyatın ayrı-ayrı janrlar üzrə təhlili yüksək professional səviyyədə yerinə yetirilmişdir. Yarandığı dövrdən təxminən yarım əsr keçməsinə baxmayaraq, bu monoqrafiya indi də Böyük Vətən müharibəsi mövzusunda yazılmış ədəbiyyatın qiymətli, sanballı elmi salnaməsi kimi qəbul olunur. Ən əsası isə Bəkir Nəbiyevin müharibə mövzusuna həsr edilmiş Azərbaycan ədəbiyyatına dair tədqiqatlarında azərbaycançılıq ideyaları, vətənpərvərlik motivləri həmişə önə çəkilmiş və müasirlik mövqeyindən qiymətləndirilmişdir.

Bəkir Nəbiyev ədəbiyyat tənqidçisi ağırlıqlı ədəbiyyatşünas statusu qazanmışdır. Ədəbi tənqidin simasını müəyyən edən müasirlik və sənətkarlıq akademik Bəkir Nəbiyevin də tədqiqatlarının əsas qayəsinə, formalaşmış modelinə çevrilmişdir. Alimin ilk dəfə hələ 1966-cı ildə çap olunmuş "Müasirlik və sənətkarlıq uğrunda" adlı kitabı ilə başlanan bu yol ildən-ilə inkişaf edərək onun elmi fəaliyyətinin əsas ana xətti kimi özünü büruzə vermişdir. Müasirliyi sənətkarlıqla vəhdətdə araşdırıb qiymətləndirmək Azərbaycan ədəbiyyatının milli və bəşəri dəyərlər uğrunda apardığı mübarizənin, müasir insan və yeni həyat ideallarına həsr olunmuş ədəbiyyatın yüksək bədiilik səviyyəsində təqdim olunması yollarında dönməz elmi mövqe göstərmək demək idi. Akademik Bəkir Nəbiyevin ədəbiyyatşünaslıq sahəsindəki çoxillik fəaliyyətinin əsas qayəsi müasirlik və sənətkarlıq uğrunda mübarizədən ibarətdir. Görkəmli elm xadimi Bəkir Nəbiyevin "Ədəbi düşüncələr" (1971), "Təzə izlər sorağında" (1979), "Müasirlərimiz bədii ədəbiyyatda" (1983), "Söz ürəkdən gələndə" (1984), "Roman və müasir qəhrəman" (1987), "Xalq mənəviyyatının güzgüsü" (1999), "Hərənin öz yolu" (2008) və sair kitablarının baş mövzusunu müasirlik və sənətkarlıq təşkil edir. Uzun bir dövr ərzində ədəbiyyatda müasirlik və sənətkarlıq məsələlərini tədqiq etmək, ədəbiyyatı bu meyarlara doğru istiqamətləndirmək ədəbi tənqid statusunda, tənqidçi postunda möhkəm dayanmaq, elmin və ədəbiyyatın inkişafına dönmədən xidmət göstərmək deməkdir. Akademik Bəkir Nəbiyev bu elmi amala şərəflə və məsuliyyətlə xidmət etmişdir. Böyük ədəbiyyatşünas alimin zəngin elmi irsi tənqidçilik ağırlıqlı böyük ədəbiyyatşünaslığın mükəmməl elmi nümunəsidir.

Ədəbi tənqidə dair portretləri ilə yanaşı akademik Bəkir Nəbiyev icmal tənqidi sahəsində də ardıcıl fəaliyyət göstərmişdir. Onun Azərbaycan ədəbiyyatının müxtəlif mərhələləri, inkişaf dövrləri üzrə yaranan ədəbiyyata dair ədəbi icmalları həmin dövrün canlı ədəbi prosesini, mühüm elmi nəticələrini və çatışmazlıqlarını dolğun surətdə əks etdirmiş, ədəbiyyatımızı daha da inkişaf etdirmək üçün çıxış yollarını və proqnozları özündə cəmləşdirmişdir. Ədəbi icmallar həm də akademik Bəkir Nəbiyevin ölkəmizdə ədəbi prosesi nə qədər dərindən və incəliklərinə qədər izlədiyini, həmin proseslərin ayrı-ayrı janrlarındakı inkişaf dinamikasını obyektiv müəyyən etdiyini və elmi cəhətdən yüksək səviyyədə dəyərləndirdiyini diqqətə çatdırır. Ədəbi icmallar həm də akademik Bəkir Nəbiyevin fəal və ardıcıl mütaliə mədəniyyətini də təsəvvür etməyə imkan verir. Buna görədir ki, Bəkir Nəbiyevin ədəbi icmalları XX əsrin ikinci yarısı Azərbaycan ədəbiyyatı tarixinin fəsilləri təəssüratı yaradır.

Ədəbiyyatda müasirlik, yeni insan və müasir həyat mövzusunun tədqiqi öz növbəsində dövlətçilik ideyaları ilə üzvi surətdə bağlı olan məsələdir. Bəkir Nəbiyevin elmi fəaliyyətində davamlı yer tutan "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı" mövzusu da ideyası etibarilə onun elmi fəaliyyətində xüsusi yer tutan müasirlik və azərbaycançılıq ideyalarının xüsusi bir təcəssümüdür. O, müxtəlif illərdə yazdığı elmi əsərlərində ədəbiyyatı, ədəbi prosesi görkəmli dövlət xadimi Heydər Əliyevin azərbaycançılıq ideallarının işığında təhlil edib dəyərləndirməyi müasirlik uğrunda mübarizənin ana xətti kimi təqdim etmişdir. Bununla belə Bəkir Nəbiyevin tədqiqatlarında Ulu Öndər Heydər Əliyev və Azərbaycan ədəbiyyatı mövzusunun əsas prinsipləri müəyyən edilmiş, elmi örnəkləri yaradılmışdır. Onun Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşları ilə birlikdə yazıb 1998-ci və 2009-cu illərdə iki dəfə nəşr edilmiş "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı" adlı monoqrafik tədqiqatı ölkə HeydərƏliyevşünaslığının qiymətli nümunəsidir. Akademik Bəkir Nəbiyevin rəhbərliyi ilə hazırlanmış "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı" kitabının respublika Dövlət mükafatına layiq görülməsi bu elmi əsərə verilmiş yüksək qiymətin ifadəsidir. Yeri gəlmişkən qeyd edək ki, akademik Bəkir Nəbiyev ölkəmizdə ayrı-ayrı əsərlərinə görə iki dəfə Dövlət mükafatına layiq görülmüş bəlkə də tək elm xadimidir.

Akademik Bəkir Nəbiyev elmi fəaliyyətlə təşkilatçılıq işini bacarıqla əlaqələndirmişdir. O, elm sahəsində olduğu kimi, təşkilatçılıq işi sahəsində də səmərəli fəaliyyət göstərmişdir. Müxtəlif illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat, Dil və İncəsənət Bölməsinin akademik-katibi vəzifəsində (1987-2001) çalışan akademik Bəkir Nəbiyev Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyinə (1971-1987) və Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutuna (2003-2011) da bacarıqla rəhbərlik etmişdir. O, beynəlxalq elmi tədbirlərdə Azərbaycan elmini layiqincə və yüksək səviyyədə təmsil etmişdir. Eyni zamanda akademik Bəkir Nəbiyev Azərbaycan ədəbiyyatşünaslıq elminin bir neçə nəslinin elmi rəhbəri, elmi məsləhətçisi, rəsmi opponenti, çoxsaylı kitabların elmi redaktoru kimi də səmərəli fəaliyyət göstərmiş, bu mühüm sahələrin inkişafı yollarında var qüvvə ilə çalışmışdır. Uzun illər Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun ixtisaslaşmış Müdafiə Şurasına rəhbərlik etmiş akademik Bəkir Nəbiyev ölkəmizdə ədəbiyyatşünaslıq üzrə yeni nəsil elmlər doktorları və namizədlərinin formalaşdırılmasında yaxından iştirak etmişdir. O, çoxcildlik Azərbaycan ədəbiyyatı tarixinin əsas təşkilatçılarından və aparıcı müəlliflərindən biri olmuşdur.

Çoxillik elmi fəaliyyəti, ədəbiyyatşünaslıq sahəsindəki xidmətləri dövlət səviyyəsində yüksək qiymətləndirilən akademik Bəkir Nəbiyev Əməkdar elm xadimi fəxri adına layiq görülmüş (1999), "Xalqlar dostluğu" (1986), "Şöhrət" (2000) və "İstiqlal" (2005) ordenləri ilə təltif olunmuşdur. O, eyni zamanda "Hacı Zeynalabdin Tağıyev" (1993) və "Məmməd Araz" (1994) mükafatlarının da laureatı idi.

Görkəmli elm xadimi, akademik Bəkir Nəbiyevin zəngin elmi irsi müstəqillik dövrü Azərbaycan ədəbiyyatşünaslıq elminin inkişafına işıq salan, bələdçilik edən qiymətli əsərlərdir. Bu gün Bəkir müəllimin kitabları yeni elmi nəsillər üçün mötəbər mənbə kimi yaşayır.

***İsa HƏBİBBƏYLİ,***
***AMEA-nın birinci vitse-prezidenti,***
***Milli Məclisin deputatı, akademik***

# Yaddaşlarda əbədiləşən insan

Həyat insanı çox sınaqlardan keçirir. Cəmi bir neçə onilliyə sığan ömründə nə qədər çətinlikləri dəf etməli olursan. Yüksək vəzifələr, titullar, şan-şöhrət özü də fərdlər üçün bir insanlıq imtahanına çevrilir. Bütün bunların qarşısında özünü qoruya bilənlər, şərəfli ömür yaşayanlar, xalqına fayda verənlər həyatda olmayanda belə rəğbətlə xatırlanırlar. Zamanın hansı tərəfindən baxırsan bax, belə insanlar özünəməxsusluqları ilə fərqlənirlər. Şəxsiyyətlərini saf, təmiz təməllər üzərində quranlar tarixdə qalır, yaddaşlarda yaşayırlar.



## 67 illik ömürdən səhifələr

Hər zaman sevgi ilə xatırlanan insanlardan biri də Baxşəli Həsən oğlu Baxşəliyevdir. O, 1920-ci ilin 20 avqustunda Bərdədə anadan olub. Bərdə rayonu onda Gəncə (Yelizavetpol) quberniyasına aid Cavanşir qəzasının tərkibində bir kənd idi. Əhalisi əsasən əkin-biçinlə məşğul olurdu. O zaman Azərbaycanın bütün bölgələri kimi bu torpaqlarda da sovet hökumətinin yerli təsisatları möhkəmlənirdi. Qırmızılar savadsızlığın ləğvini əsas şüarlarından biri elan etmişdilər. Hər yerdə savad kursları açılırdı. Yerlərə mərkəzi şəhərlərdən müəllimlər göndərilirdi.

Hamı, o cümlədən Baxşəli Baxşəliyevin valideynləri də hiss edirdilər ki, artıq dövr təhsilindir. Bu zəmanədə ancaq təhsilli insanlar irəli gedə bilərlər. Ona görə də övladları Baxşəlinin yazıb-oxumağına ciddi diqqət yetirirdilər.

Onda təhsil almaq, dərslərə hazırlaşmaq indiki kimi asan deyildi. Zəmanə ağır, dolanışıq çətin idi. Yerlərdə az-çox imkanlı adamlar qolçomaq adı ilə repressiyaya məruz qalırdılar. Sovet hökuməti inqilabi yeniliklərlə əvvəlki xüsusi mülkiyyət sistemini dağıdıb yenidən qurduğundan qıtlıq, imkansızlıq yaranmışdı. İnsanlar yemək, paltar və başqa sosial ehtiyaclar sarıdan ciddi sıxıntı çəkirdilər. Bununla belə gənclərdə oxumaq həvəsi güclü idi. Uşaqlar gündüz əkin-biçin işlərində ata-analarına kömək edər, gecələrsə qaraçıraq işığında dərslərinə hazırlaşar, kitab oxumaqdan doymazdılar.

## İdeallara bağlılıq

Doğmaları, yaxınları Baxşəlinin gələcəyinə böyük ümid bəsləyirdilər. O da dərslərində uğur qazanmaq üçün getdikcə daha səylə çalışırdı. Bu çalışqanlıq bəhrəsini verirdi.

Baxşəli valideynlərinin ümidlərini doğrultdu. Orta təhsilini başa vurub Qori şəhərindəki Maliyyə İnstitutunu bitirdi. Rus dilini mükəmməl öyrəndiyindən ali məktəbə qəbul və orada təhsil almaq onun üçün çətin olmadı. Onda yerlərdə peşəkar maliyyəçilərə böyük ehtiyac vardı. Kolxoz-sovxoz sistemi yenicə qurulmuşdu. Mərkəzdə və yerlərdə dövrə uyğun çoxsaylı təşkilatlar yaradılmışdı. Dövlət planlı təsərrüfat sistemi əsasında idarə olunurdu. Mürəkkəb bir təsərrüfatın hesablama işlərini aparmaq, auditini həyata keçirmək, gəlir və xərclərə nəzarət etmək maliyyə sahəsində savadlı mütəxəssislərin işi idi. İnstitutu bitirdikdən sonra 1937-ci ildə əmək fəaliyyətinə başlayan Baxşəli Baxşəliyev Azərbaycan SSR Maliyyə Nazirliyinin Bərdə rayon şöbəsində əvvəlcə nəzarətçi kimi işə başladı. Sonra baş mühasib, ardınca isə baş nəzarətçi-müfəttiş oldu.

O, Bərdə və Yevlax rayonları üzrə çalışırdı. İşi o qədər də asan deyildi. Sovet hökuməti dövlət maliyyəsinə xor baxanlara qarşı yetərincə sərt mövqe tutmuşdu. Belələrinə heç bir güzəşt edilməzdi. Hətta çox zaman onlar ən ağır cəzaya - güllələnməyə layiq görülərdilər. Bununla belə tamahına sahib çıxa bilməyənlər, nəfsinə məğlub olub dövlət əmlakına əl uzadanlar, əliəyrilik edənlər yenə də tapılırdı. Ona görə də işdə çox prinsipial olmaq lazım gəlirdi. Baxşəli Baxşəliyev hər zaman çalışırdı ki, ona verilən tapşırığı vicdanla, yüksək peşəkarlıqla yerinə yetirsin. Dövlətin, xalqın əmlakını əliəyrilərdən, artıqtamahlardan qorusun. O, ideallarına bağlı bir gənc idi. Erkən yaşlardan özündə dövlətçilik düşüncəsi aşılamışdı. Partiya tərbiyəsini, əxlaqını mənimsəmişdi. Daşıdığı komsomolçu, daha sonra kommunist adı onun üçün sadəcə cibində gəzdirdiyi biletdən, müəyyən üstün imtiyazlardan ibarət deyildi. Bu, bir məsuliyyət idi. Gördüyü işlə, dürüstlüyü, prinsipiallığı, vəzifəsinə peşəkar yanaşması ilə o, dövlətin, cəmiyyətin inkişafına töhfə verdiyinə qəlbən inanırdı. Hesab edirdi ki, insan milli-mənəvi dəyərlərə bağlı olduğu kimi, xalqa layiqli xidmətdən də qürur duymalıdır.

## Vəzifə irəliləyişləri

Tutduğu yolda qarşısına xeyli çətinliklər də çıxmışdı. Yanlışlarını, ağır maliyyə qüsurlarını aşkar etdiyi adamların təhdidləri, hədə-qorxuları, hətta həyatına yaranan real təhlükələr də az olmamışdı. Amma bunların heç biri Baxşəli Baxşəliyevi öz prinsiplərindən çəkindirə bilməzdi. 1954-cü ilə qədər Bərdə və Yevlax bölgələrində məhz bu qaydada işlədi.

Əyalətdə çalışan bu peşəkar, vicdanlı, prinsipial gəncin xoş səsi-sorağı artıq mərkəzdəkilərə də yetişmişdi. 1954-cü ildə onu Maliyyə Nazirliyinə baş nəzarətçi-müfəttiş vəzifəsinə dəvət etdilər. Az sonra isə Nəzarət-təftiş İdarəsinin şöbə rəisi təyin olundu. Nazirlikdəki fəaliyyəti onun üçün yeni bir məktəb idi. Burada peşəkar insanlarla çalışması, dinamik bir mühitdə olması ona fərdi inkişaf üçün geniş imkanlar yaradırdı. Nazirlikdə işi ilə bağlı xeyli yeniliklərə yiyələndi, bilik və bacarıqlarını daha da artırdı. 1961-ci ildə onu Baş Dövlət Sığorta İdarəsinin rəisi vəzifəsinə təyin etdilər. 8 il burada işlədi. Ölkədə sığorta sisteminin inkişafına böyük əmək sərf etdi. 1968-ci ildə isə Maliyyə nazirinin birinci müavini vəzifəsinə irəli çəkildi.

## 1969-cu ilin 14 iyulundan başlanan yeni tarix

1969-cu ilin 14 iyul günü Azərbaycanın tarixi taleyini dəyişən hadisə baş verdi. Ulu Öndər Heydər Əliyev həmin gün Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi seçildi. Bu hadisə ilə xalqımızın tarixində yeni bir səhifə açıldı. Bu səhifənin hər cümləsində, hər kəlməsində bir amal, niyyət öz ifadəsini tapırdı: haqq-ədalətin bərqərar olması, dövlət-vətəndaş münasibətlərinin hüquqi müstəvidə tənzimlənməsi, demokratik dəyərlərə söykənən sivil cəmiyyətin yaradılması, dövlət qurumlarının xalqın malına xor baxan ünsürlərdən təmizlənməsi və onların əməllərinə layiqli hüquqi qiymətin verilməsi.

Heydər Əliyev öz iş prinsiplərini, fəaliyyət manifestini 1969-cu ilin 5 avqustunda keçirdiyi və tariximizdə indi də "avqust plenumu" kimi xatırlanan tədbirdə açıq ifadə etmişdi. Ulu Öndərin səsləndirdiyi fikirlərin mühüm bir qismi məhz kadr islahatları ilə bağlı idi. Heydər Əliyev deyirdi: "...Biz ayrı-ayrı vəzifəli şəxslərin davranışında özünü büruzə verən nalayiq hallara, pozğunluq təzahürlərinə göz yuma bilmərik. Mənəviyyat, əxlaq bütün işimizə nüfuz etməlidir. Kadrları açıq-aşkar, kütlələrin gözü qarşısında seçmək, onlar haqqında kollektivin, adamların, iş yoldaşlarının rəyini nəzərə almaq lazımdır. Yalnız belə olduqda kadrların seçilməsi və yerləşdirilməsindəki bir çox səhvlərin qarşısını almaq, həmin sahədə işimizin səviyyəsini xeyli yüksəltmək olar".

Heydər Əliyev bu sözləri təsadüfən demirdi. Uzun illər xüsusi xidmət orqanlarında çalışan, məxfi məlumat axınını idarə edən peşəkar kimi Heydər Əliyev dövlət idarələrindəki yüksəkvəzifəli şəxslərdən kimin kim olduğunu çox gözəl bilirdi. Azərbaycanın inkişafı üçün qarşıya qoyduğu çoxsaxəli planları, verdiyi strateji qərarları həyata keçirmək üçün respublika rəhbərinin səriştəli, dürüst, vicdanlı, bir o qədər də vətənpərvər kadrlara ehtiyacı vardı. Ulu Öndər bu kadrları indiyə qədərki işlərində ortaya qoyduqları nəticələri diqqətdən keçirərək, cəmiyyətin onlar haqqında rəylərini nəzərə alaraq seçirdi.

Bu mənada Ulu Öndərin Azərbaycana rəhbərliyə başlamasından cəmi bir neçə ay sonra ölkənin yeni Maliyyə naziri kimi son dərəcə çətin və məsuliyyətli bir vəzifədə məhz Baxşəli Baxşəliyevin üzərində dayanması onun bu meyarlara tam uyğunluğundan irəli gəlirdi. O, Heydər Əliyevin yüksək inam və etimadını qazana bilmişdi. Bu imtahandan keçə bilməsi Baxşəli Baxşəliyevin həyat və karyerasının bəlkə də ən böyük uğuru idi.

## Etibarlı silahdaş

Bundan da böyük uğuru isə o, Ulu Öndərin etimadını doğrultması ilə qazandı. Baxşəli Baxşəliyev bu vəzifədə 1987-ci ilədək - dünyadan köçdüyü günə qədər çalışdı. Dövlət quruculuğu yolunda Heydər Əliyevin ən sadiq silahdaşlarından oldu. Onun qarşıya qoyduğu vəzifələri layiqincə yerinə yetirməyi özünə hər zaman şərəf saydı.

Məlum olduğu kimi, Ulu Öndər Azərbaycana rəhbər seçiləndə respublika iqtisadiyyatında durum o qədər də ürəkaçan deyildi. Bütün əsas sosial-iqtisadi inkişaf göstəricilərinə görə Azərbaycan ittifaqda axırıncı yerlərdən birini tuturdu.

Heydər Əliyev, ilk növbədə, iqtisadiyyatda yaranmış ağır vəziyyətin, onu doğuran səbəblərin sistemli təhlilini apardı, risklər edərək bir sıra təşkilati tədbirlər həyata keçirdi. İttifaq hökuməti qarşısında respublikanın gələcək iqtisadi həyatı ilə bağlı məsələlər qaldırdı və qısa vaxt ərzində sovet hökumətinin Azərbaycan Respublikasının inkişafına dair xüsusi qərarlarının qəbul edilməsinə, lazımi həcmdə maliyyə vəsaitlərinin ayrılmasına nail oldu. Milli gəlir, sənaye, kənd təsərrüfatı məhsulları istehsalında 60-cı illərdəki gerilik qısa zamanda aradan qaldırıldı. Yeni, keyfiyyətli inkişafın fundamental əsaslarının möhkəmləndirilməsi üçün xeyli iş görüldü.

Heydər Əliyevin əzmkarlığı sayəsində Azərbaycan sənayesinin inkişafı tarixində mühüm rol oynayan bir sıra proqramlar qəbul olundu. Yeni tipli müəssisələr, istehsal sahələri istifadəyə verildi, on minlərlə yeni iş yeri yaradıldı. Sənayenin ixrac potensialı xeyli artdı, istehsalın mədəni-texniki səviyyəsi yüksəldi. 1970-ci illər Azərbaycan tarixinə, sözün əsl mənasında, sənayenin intibah dövrü kimi daxil oldu.

1971-1975-ci illərdə respublika iqtisadiyyatına əvvəlki 5 ildəkindən 30 faiz çox vəsait qoyuldu, 64 iri sənaye müəssisəsi istifadəyə verildi.

Bütün bu nailiyyətlərin əldə olunmasında təbii ki, maliyyə resurslarının düzgün idarə edilməsi, gəlir və xərclərə nəzarət, pozuntu hallarının qarşısının alınması üçün həyata keçirilən tədbirlər, Maliyyə nazirinin öz işinin peşəkarı kimi ölkə rəhbərliyi qarşısında irəli sürdüyü səmərəli təşəbbüslər də böyük rol oynayırdı. Bu baxımdan, qarşıya qoyulan məqsədlərin əldə edilməsində Azərbaycanın Maliyyə naziri kimi Baxşəli Baxşəliyevin böyük xidmətləri oldu. Ölkənin müasir tələblərə uyğun maliyyə-büdcə sisteminin qurulmasına, maliyyə intizamının, kredit və sığorta sisteminin gücləndirilməsinə o, fədakar əmək sərf etdi və bu əməyin bəhrələri ölkənin sosial-iqtisadi inkişafında göründü. Maliyyə Nazirliyi dəfələrlə keçici Qırmızı Bayraq aldı və sosialist yarışmasının qalibi elan edildi. Respublikada yüksəkixtisaslı maliyyəçi kadrların hazırlanması sahəsində də B.Baxşəliyevin əvəzsiz rolu və böyük xidmətləri danılmazdır.

## Onun təşkilatçılıq qabiliyyəti yüksək qiymətləndirilirdi

Heydər Əliyev Maliyyə naziri Baxşəli Baxşəliyevin təşkilatçılıq qabiliyyətini, işinin bilicisi olmasını, təşəbbüskarlığını, prinsipiallığını, mənəvi-əxlaqi keyfiyyətlərini yüksək qiymətləndirirdi. B.Baxşəliyev ölkənin sosial-iqtisadi inkişafına verdiyi dəyərli töhfələrə görə "Qırmızı Əmək Bayrağı", "Xalqlar Dostluğu", "Şərəf nişanı" ordenləri və digər yüksək dövlət mükafatları ilə təltif olunmuş, "Azərbaycanın əməkdar iqtisadçısı" fəxri adına layiq görülmüşdür. O, ölkənin ictimai-siyasi həyatında, partiya işində də yaxından iştirak etmişdir. 1971-ci ildən başlayaraq ardıcıl olaraq dörd çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir.

Baxşəli Baxşəliyev həm də nümunəvi ailə başçısı idi. Bu ailədə iki oğlan, dörd qız olmaqla altı övlad böyüyürdü. Övladlarını milli-mənəvi dəyərlər ruhunda tərbiyə edərdi. İş qrafikinin gərginliyinə baxmayaraq onların dərslərini, fərdi intizamını diqqətində saxlayardı. Uşaqların təlim-tərbiyəsinə ciddi tələbkarlıq göstərərdi. Eyni zamanda onları zəhmətsevərliyə, sadəliyə alışdırardı. Oğlu, professor Adil Baxşəliyev atası haqqında danışarkən deyir: "Yaşlı nəsil Baxşəli Baxşəliyevin rəhbər vəzifələrdə çalışdığı, o cümlədən 18 il respublikanın Maliyyə naziri olduğu dövrü yaxşı xatırlayır. Bizim heç birimiz atamızın çalışdığı sahəni seçməsək də, xalqa məhəbbəti, peşəyə sədaqəti, elmə, təhsilə həvəsi, səxavətli olmağı, məsuliyyəti və bir çox digər xüsusiyyətləri ondan öyrənmişik. Həmişə bizə deyərdi ki, düşünməyin atanız nazirdir. Vəzifə müvəqqətidir. Siz yalnız öz gərgin zəhmətiniz sayəsində nələrəsə nail ola bilərsiniz. Ona görə də həmişə çalışın".

O, qızların təhsil almasını xüsusilə çox arzulayırdı. Bunu bir tövsiyə kimi sözü yetən hər kəsə aşılamağa çalışırdı. Qızı, Azərbaycan Milli Elmlər Akademiyasının Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, professor Gövhər Baxşəliyevanın xatirələrindən: "Həmişə deyərdi, qızları elə böyütmək lazımdır ki, gələcəkdə heç kimdən asılı vəziyyətə düşməsinlər. Oğlan lazım gəlsə, ən ağır işlərdə çalışıb, yük daşıyıb özünü dolandıra bilər. Qızınsa əlində bir sənəti olmalıdır. Həyatdır, bilmək olmaz necə olacaq, özünə bir parça çörək qazana bilməlidir".

Düşünürük ki, şirin xatirələr işığında yada düşən bu kəlmələr də Baxşəli Baxşəliyevin milli ruhlu Azərbayan ziyalısı kimi nə qədər yüsək mənəvi keyfiyyətlərə malik olduğunu göstərir.

Bu il anadan olmasından 100 il ötür.

Dünyaya gəlişindən ötən bir əsrlik zaman Baxşəli Baxşəliyev kimi insanların daşıdıqları ali dəyərlərin daha bir əsrin ucalığına yüksəlməsi deməkdir. Bütün ömrünü xalqına xidmətdə keçirmiş görkəmli iqtisadçı-maliyyəçi, ictimai-siyasi xadim B.Baxşəliyev həyatı ilə başqalarına örnək olan şəxsiyyətlərdəndir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!

# Vətəni candan əziz tutanlar

Deyirlər ki, dərdli, kədərli günlər insanı müdrikləşdirir, səbrini, gücünü, cəsarətini toplamaqda ona kömək olur. Şəhid mayor Anar Novruzovun oğlu, 7-ci sinif şagirdi Nihadla apardığımız söhbət zamanı bunun bir daha şahidi olduq. Balaca müsahibimi ilk dəfə görsəm də, hiss etdim ki, atasının ölümündən, daha doğrusu, ölümsüzlüyə qovuşduğu vaxtdan keçən bir ay ona çox şeyləri öyrədib. Şəhidin dəfni zamanı respublika Müdafiə Nazirliyi, Masallı Rayon İcra Hakimiyyəti nümayəndələrinin, deputatların, ayrı-ayrı hörmətli adamların atası - mayor Anar Novruzov haqqında dedikləri sözlər onu qürurlandırıb, yaddaşına həkk olunub, gələcək taleyini, ömür yolunu seçməkdə, müəyyənləşdirməkdə ona öz diktəsini edib. Nihad qəti şəkildə hərbçi olmaq, atasının, onun şəhid olmuş döyüş yoldaşlarının qisasını almaq qərarına gəlib. Bunun üçün ilk öncə Sərhəd Qoşunları Gimnaziyasında, sonra isə həmin qoşun növünün akademiyasında təhsil almaq arzusundadır. Belə bir deyim var: "Ataların yolu övladların yoludur". Orta məktəb şagirdi Nihadın atası, 44 yaşında şəhidlik zirvəsinə ucalan mayor Anar Novruzovun həyatı təkcə doğma oğluna deyil, digər gənclərimizə də nümunədir, örnəkdir.



Anar Novruzov 12 may 1976-cı ildə Masallı rayonunun Ərkivan qəsəbəsində dünyaya göz açıb. 3 qardaş, 7 bacı olublar. Qəhrəman ana Pürzə xanımın və Gülverdi kişinin böyüdüb boyabaşa çatdırdığı 10 uşaqdan biri idi şəhid zabitimiz. Bütün çoxuşaqlı ailələrin övladları kimi onların da maddi sıxıntıları az olmayıb. Amma heç bir çətinlik onları qorxutmayıb, haqq yolundan uzaqlaşdırmayıb. Əksinə, aldıqları düzgün tərbiyə sayəsində halal zəhmətə bağlanıblar, vətənə layiqli övlad olmağı hər şeydən üstün tutublar. Qardaş və bacılar erkən yaşlarından gələcək həyat yollarını özləri müəyyən ediblər. Əsgəri xidmətdən sonra vətən sevdası ilə 1995-ci ildə Ulu Öndər Heydər Əliyevin adını daşıyan Ali Komandirlər Məktəbinə daxil olur, 1999-cu ildə taktiki motoatıcı qoşunların komandiri kimi təhsilini başa vuraraq hərbi xidmətə başlayır. Qulluq etdiyi 26 il ərzində bir dəfə də olsun hər hansı nöqsana yol vermir. Özündən yuxarı vəzifəli komandirlərin tapşırıqlarını vaxtında və yüksək keyfiyyətlə yerinə yetirir. Kəşfiyyatçı zabit olaraq xidmətə başlayan A. Novruzov siyasi işlər üzrə tabur komandirinin müavini vəzifəsinədək yüksəlir. Tabeliyindəki əsgərlərə, gənc zabitlərə tələbkarlıqla yanaşmaqla bərabər, onlara ata, böyük qardaş qayğısı göstərir.

Mayor A. Novruzovun ən yaxşı xüsusiyyətlərindən biri həmişə öyrənməyə can atması olub. Böyük qardaşı Sücəddin Novruzov deyir ki, dəfn mərasiminə gələn zabit yoldaşları onun AQS-17 silahının ən kamil bilicisi olduğunu söyləyiblər. Həmin silahla da şəkil çəkdirib. Elə bil ürəyinə damıbmış. "Qoy bu şəkil məndən yadigar qalsın", - söyləyib. Döyüşkənliyi, mübarizliyi A. Novruzova "Akula" ləqəbini qazandırıb. Hiyləgər düşmən kəşfiyyatçı mayorun nəyə qadir olduğunu bilərək onun başı üçün xüsusi mükafat da təsis edibmiş.

Biz Masallıda olarkən Tovuz döyüşlərində şəhid olan A.Novruzovun ölümünün 40-cı gününə az qalırdı. Şəhidin bu vaxtadək yaşadığı evdə oğlu Nihadla, böyük qardaşı Sücəddin və digər yaxınları ilə görüşüb onun ruhuna dualar etdik, ailəyə başsağlığı verdik. Masallı-Yardımlı magistral şose yolunun üstündə yerləşən həyət evinin daş hasarından qıraq tərəfdə aparılan tikinti diqqətimizi cəlb etdi. S. Novruzov dedi ki, burada şəhid qardaşı mayor A.Novruzovun büstü qoyulacaq, habelə abidə kompleksində Tovuz, eləcə də Qarabağ uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş ərkivanlı igidlərin hər birinin qara mərmərdə surəti öz əksini tapacaqdır. "Sağ olun, yaxşı fikirdir. Şəhidlərimizin xatirəsini əziz tutmaq bizim hər birimizin müqəddəs borcumuzdur. Buraya gələnlər, xüsusilə məktəblilər A. Novruzov və digər şəhidlərimiz haqqında məlumat alacaqlar. Bu isə gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsinə müsbət təsir edəcək" deyərək belə bir xeyirxah təşəbbüsü təqdir etdik.

Şəhid zabitimizin məzarını ziyarət etmək fikrində olduğumuzu Sücəddinə söylədikdə o: "Olar. Qəsəbə qəbiristanlığı beş addımlıqdadır", - dedi. Şəhidin məktəbli oğlu Nihadı da götürüb Təpə adlanan məzarıstana yollanırıq. Ziyarətə gələnlər üçün burada hər bir şərait yaradılıb. Giriş qapısının yaxınlığında ətrafına təzə əklillər, gül-çiçəklər düzülmüş məzarın yanına gəlirik. Burada bizdən başqa da ziyarətçilər var. Quranın "Həmdi-surə" ayəsi oxunur. Sonra ortaya sükut çökür. Qara mərmərdən nəfis şəkildə düzəldilmiş baş və sinə daşları şəhidlərə göstərilən qayğının bariz nümunəsidir. Şəhidlərin ailələri, övladları da həmişə ölkə rəhbərinin nəzarətindədir, dövlət qayğısı ilə əhatə olunublar.

Qəbrin yanında düzəldilmiş xüsusi yerdə "Xatirə kitabı" qoyulmuşdur. Onu vərəqləyirik. Yaxından-uzaqdan gələn ziyarətçilərin ürək yanğısı ilə yazdığı sözləri həyəcansız oxumaq mümkün deyil. Göygöl rayonundan Z. Abdullayev adına 5 saylı tam orta məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini Ramin Hacıyev yazıb: "Əziz qardaşım Anar! Sizin və yoldaşlarınızın bu ilin iyul ayında Tovuz rayonu ərazisində gedən döyüşlərdə göstərdiyiniz igidliklər Azəbaycanın hərb salnaməsinə yeni səhifə kimi daxil oldu. Siz şəhid oldunuz, lakin mənfur, hiyləgər düşməni sərhədlərimizi keçib torpaqlarımıza girməyə qoymadınız. Öz cəsarətinizlə bir daha göstərdiniz ki, vətən candan da əzizdir. Bütün Azərbaycan xalqı indi sizin şücaətinizdən danışır. Belə zabitləri, igid oğulları olan xalq hökmən düşmən üzərində qələbə çalacaq, əzəli torpaqlarımız olan Qarabağı geri qaytaracaqlar. İnanırıq ki, o gün uzaqda deyil".

Döyüşçü yoldaşı Qadir Həbibov isə belə yazıb: "Rəis, salam! Sənin məzarın başında durub sənə baş əyirik. Sən bizim üçün nümunəvi, unudulmaz bir komandir idin. Nə qədər canımızda can var, qəlbimizdəsən. Sənin qalxdığın uca şəhidlik zirvəsinə yüksəlməyi özümə də arzulayıram. Ruhun şad olsun!"

Şəhid general-mayor Polad Haşımovun qardaşı İlham Haşımov, şəhid polkovnik İlqar Mirzəyevin qardaşı Rafael Əsədov, xidmət yoldaşı polkovnik-leytenant Loğman Xanlarov isə öz hisslərini belə ifadə etmişlər: "Torpaq su ilə yoğrulanda palçıq, qanla qarışanda isə vətən olur. Torpağı qanı ilə vətən edənlərdən biri də, Anar qardaşımız, sənsən. Allah sənə rəhmət eləsin! Ruhun şad olsun!"

Bütün Qafqazın şeyxi Hacı Allahşükür Paşazadə, deputatlardan Məşhur Məmmədov, Anar İsgəndərov, Fəzail İbrahimli, Qənirə Paşayeva, Cavanşir Paşazadə və yüzlərlə ziyalılarımız şəhid Anar Novruzovun dəfn mərasimində iştirak etmişlər. Pandemiya rejimi dövrü olsa da, qayda-qanuna əməl etməklə insanlar şəhidin məzarını ziyarətə gəlməkdədirlər.

İstər 2016-cı ilin aprel, istərsə bu ilin iyul ayında Tovuz döyüşlərində qəhrəmancasına həlak olmuş şəhidlərimizin qanını almağa tələsən minlərlə gənclərimizin ayağa qalxdığını, "Vətən bölünməz, şəhidlər ölməz!" şüarı altında döyüşə hər an hazır olduqlarını bütün dünya gördü. Bu gənclərin əksər hissəsi Respublika Səfərbərlik və Çağırış Xidmətinin şöbələrinə gedərək döyüşə hazır olduqlarını bildirməkdədirlər. Bunları görəndə qürur hissi keçirirsən, fikirləşirsən ki, çətin günlərdə bir olan, bir zindana vuran xalq torpaqlarını düşməndə qoymayacaq, geri qaytaracaqdır. O zaman şəhidlərimizin ruhu şad olacaq. Bir şeirimdə dediyim kimi:

*Yayılsın bu sədam şəhərə, kəndə,*
*Dedim sözlərimi ürək dinəndə.*
*Bütün Azərbaycan bütövləşəndə*
*Şəhidlər qayıdar yenə bu yurda.*

**S.CAVADOV,**
**"Azərbaycan"**

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyi Publik Hüquqi Şəxs "DOST İş Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə aparılır.

**LOT-1. Maşın və avadanlıqlar təsnifatı üzrə malların satın alınması (311150. - Maşın və avadanlıqlar alınması)**

Tender iştirakçıları dövlət satınalmalarının **https://www.etender.gov.az/** vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olaraq tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər iştirak haqqının ödənilməsini yalnız "ASAN ödəniş" vasitəsilə həyata keçirilə bilərlər. Müsabiqədə iştirak etmək üçün müsabiqəyə daxil olduqdan sonra "ASAN ödəniş"lə ödə düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Portal vasitəsilə əldə edərək öz tender təkliflərini portal üzərindən təqdim edə bilərlər.

**İştirak haqqı: LOT-1: 350 manat**

**İştirak haqqı heç bir halda qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində (təklifin təminatı) bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *iddiaçının işləri yerinə yetirmək üçün potensial imkanları və maddi-texniki bazası haqqında yazılı məlumat.*

Qeyd olunan sənədlər Azərbaycan dilində, düzgün şəkildə, vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərənləri (podratçıları) satınalan təşkilat iddiaçı kimi qeydə alacaqdır.

Tender təkliflərini qiymətləndirərkən və müqayisə edərkən əsas şərtlər toplusunda müəyyənləşdirilən keyfiyyət tələblərinə cavab verən yerli mallar (işlər və xidmətlər) üzrə tender təkliflərinin xeyrinə xaricdən idxal olunan eyni malların qiymətinin 20 faizi həcmində güzəştli düzəliş tətbiq edilir.

Tender təklifinin qiymətinə bütün vergi, nəqliyyat və sığorta xərcləri daxil edilərək manatla hesablanmalıdır.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **10.09.2020-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **18.09.2020-ci il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **21.09.2020-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Əlaqələndirici şəxs: Nəsimi Kərimzadə**
**Telefon: 012 497-41-19; 051 207-59-12**
**E-mail: nasimi.karimzada@mlspp.gov.az / dost_ish@mlspp.gov.az**
**Ünvan: AZ1005, Bakı şəhəri, Z.Tağıyev küçəsi, 13**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi 3 saylı Bakı DOST Mərkəzi tərəfindən 17 avqust 2020-ci il tarixdə inzibati binada 2 ədəd KONE sərnişin liftlərinə texniki xidmətin göstərilməsi işlərinin satın alınması üzrə elan olunmuş kotirovka prosedurunun "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə əsasən davamından imtina edilir.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi

### *açıq tenderə dəvət edir*

- Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi üçün ofis sahəsinin icarəsi xidmətinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: tələb olunmur**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri* ***(notarial qaydada təsdiq olunmuş);***
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti* ***(2019-cu il üzrə maliyyə hesabatının surəti tələb olunur);***
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *bənzər işlərdə təcrübəsi barədə müqavilələr və görülmüş işlər barədə təsdiqedici sənədlər təqdim olunmalıdır;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **10.09.2020-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **18.09.2020-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **21.09.2020-ci il saat 15:00-da** açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## "Azərenerji" ASC 4 ədəd yük-sərnişin avtomobilinin satın alınması üzrə

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir: **4 ədəd yük-sərnişin avtomobilinin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini ***dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə*** təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 500 manat iştirak haqqını yalnız "ASAN Ödəniş" vasitəsilə həyata keçirdikdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu **https://etender.gov.az/** ***dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə*** adıçəkilən tenderin bölməsində əldə edə bilərlər (Əlaqələndirici şəxs: Elçin İsmayılov, telefon:598-26-96).

İddiaçı şirkətlərin asan/elektron imzalarının olması zəruridir. Yalnız asan imzası, yaxud elektron imzası olan iddiaçı ***dövlət satınalmalarının vahid internet Portalında qeydiyyatdan keçə bilər.***

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *iddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd (iri sahibkarlıq subyektləri qanuna əsasən tenderdə iştirak edə bilməz);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *əsas şərtlər toplusunda (əlavə №17) qeyd edilən malların siyahısı üzrə təqdim olunan qiymət təklifləri bütün siyahını tam əhatə etməlidir:*
- *mallar sifariş verildiyi vaxtdan sonra ən çoxu 1 ay (30 gün) müddətinə çatdırılmalıdır;*
- *müvafiq sertifikatlar.*

Sənədlər Azərbaycan dilində, skan olunaraq ***dövlət satınalmalarının vahid internet Portalına*** yüklənməlidir (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 11 sentyabr 2020-ci il saat 09:00-a qədər, bank təminatını və tender təklifini isə 21 sentyabr 2020-ci il saat 09:00-a qədər ***dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə*** təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflərə baxılmayacaq.

İddiaçıların tender təklifləri 22 sentyabr 2020-ci il saat 09:00-da ***dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə*** açılacaqdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi 2 saylı Bakı DOST Mərkəzi tərəfindən 14 avqust 2020-ci il tarixdə inzibati binada 1 ədəd AUXE sərnişin liftlərinə texniki xidmətin göstərilməsi işlərinin satın alınması üzrə elan olunmuş kotirovka prosedurunun "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə əsasən davamından imtina edilir.

***Tender komissiyası***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyi Publik Hüquqi Şəxs "DOST İş Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə aparılır.

**LOT - 1. İcarə və muzdlu xidmətlər təsnifatı üzrə malların satın alınması (222410. - İcarə və muzdlu xidmətlər alınması)**

Tender iştirakçıları dövlət satınalmalarının **https://www.etender.gov.az/** vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olaraq tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər iştirak haqqının ödənilməsini yalnız "ASAN ödəniş" vasitəsilə həyata keçirə bilərlər. Müsabiqədə iştirak etmək üçün müsabiqəyə daxil olduqdan sonra "ASAN ödəniş"lə ödə düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Portal vasitəsilə əldə edərək öz tender təkliflərini Portal üzərindən təqdim edə bilərlər.

Tenderdə iştirak haqqı tələb olunmur.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində (təklifin təminatı) bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *bənzər işlərdə təcrübəsi barədə müqavilələr və görülmüş işlər barədə təsdiqedici sənədlər təqdim olunmalıdır.*

Qeyd olunan sənədlər Azərbaycan dilində, düzgün şəkildə, vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərənləri (podratçıları) satınalan təşkilat iddiaçı kimi qeydə alacaqdır.

Tender təkliflərini qiymətləndirərkən və müqayisə edərkən əsas şərtlər toplusunda müəyyənləşdirilən keyfiyyət tələblərinə cavab verən yerli mallar (işlər və xidmətlər) üzrə tender təkliflərinin xeyrinə xaricdən idxal olunan eyni malların qiymətinin 20 faizi həcmində güzəştli düzəliş tətbiq edilir.

Tender təklifinin qiymətinə bütün vergi, nəqliyyat və sığorta xərcləri daxil edilərək manatla hesablanmalıdır.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **09.09.2020-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **18.09.2020-ci il saat 12:06-ya** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **18.09.2020-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Əlaqələndirici şəxs: Nəsimi Kərimzadə**
**Telefon: 012 497-41-19; 051 207-59-12**
**E-mail: nasimi.karimzada@mlspp.gov.az / dost_ish@mlspp.gov.az**
**Ünvan: AZ1005, Bakı şəhəri, Z.Tağıyev küçəsi, 13**

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi mətbəə məhsullarının kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla) və digər zəruri sənədlər 24 avqust 2020-ci il saat 15:00-dək Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova, 85 ünvanında yerləşən inzibati binaya təqdim olunmalıdır. Zərflər 24 avqust 2020-ci il saat 16:00-da həmin ünvanda açılacaqdır. Telefon: 012 497-71-34.

Maraqlananlar müvafiq məlumatları Dövlət Məşğulluq Agentliyinin Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova, 85 ünvanında yerləşən inzibati binadan yazılı müraciət etməklə əldə edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi Təhsil müəssisələrinin tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanmasının satın alınması ilə bağlı

### *açıq tender elan edir*

Tender 6 (altı) LOT üzrə keçirilir:

LOT-1 İsmayıllı rayonu, Sumağallı kənd 264 şagird yerlik yeni tam orta məktəbinin tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanması.

LOT-2 Balakən rayonu, Yeni Şərif kənd 360 şagird yerlik yeni tam orta məktəbinin tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanması.

LOT-3 Qəbələ rayonu, Zarağan kənd 528 şagird yerlik yeni tam orta məktəbinin tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanması,

LOT-4 Şəki şəhərində 960 şagird yerlik yeni tam orta məktəbinin tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanması.

LOT-5 Qazax şəhərində 700 şagird yerlik Mehdi Hüseyn adına humanitar və təbiət fənləri üzrə məktəb-lisey binasının sökülərək yenidən tikilməsi üzrə layihə-smeta sənədlərinin hazırlanması.

LOT-6 Masallı rayonu, Qızılağac kənd 528 şagird yerlik yeni tam orta məktəbinin tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanması.

Tender iştirakçılarına təklif edilir ki, **www.etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar hər LOT üzrə 150 (bir yüz əlli) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

| | |
|---|---|
| **Bankın adı:** | **"Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı** |
| **Kod:** | **805603** |
| **VÖEN:** | **9900001881** |
| **M/h:** | **AZ03NABZ01350100000000002944** |
| **S.W.I.F.T.** | **İBAZAZ 2X** |
| **H/h:** | **AZ88IBAZ38030019441856517211** |
| **VÖEN:** | **1500016711** |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilində tərcümə olunmalıdır).

İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **09 sentyabr 2020-ci il saat 11:00-a** qədər, tender təklifi ilə bank təminatı sənədlərini isə **17 sentyabr 2020-ci il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **18 sentyabr 2020-ci il saat 11:00-da** elektron Portal vasitəsilə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## "Bakı Metropoliteni" QSC boyalar, lak və boya məmulatlarının satın alınması üzrə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, **https:www.etender.gov.az**- dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**LOT-1 "Bakı Metropoliteni" QSC üçün boyalar, lak və boya məmulatlarının satın alınması**

**İştirak haqqı - 250 manat**

**Hesabın adı: "BAKI METROPOLİTENİ" QSC**
**Hesab nömrəsi (IBAN): AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **14 sentyabr 2020-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **22 sentyabr 2020-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **23 sentyabr 2020-ci il saat 15:00-da** açılacaqdır.
İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Sosial Müdafiə Fondunun nəzdində olan sosial xidmət müəssisələri üçün "Yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin satın alınması" məqsədilə **www.etender.gov.az** saytında 04.06.2020-ci il tarixdə, "Azərbaycan" qəzetinin 05.06.2020-ci il tarixli nömrəsində elan edilmiş açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsi həyata keçirilmişdir. Qiymətləndirmənin nəticəsində **"Evim Tekstil" MMC** qalib müəyyən edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Aparatı üçün təsərrüfat mallarının satın alınması məqsədilə **www.etender.gov.az** saytında 24.02.2020-ci il tarixdə, "Azərbaycan" qəzetinin 25.02.2020-ci il tarixli nömrəsində elan edilmiş açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsi həyata keçirilmişdir. Qiymətləndirmənin nəticəsində **"Ofis Aləmi" MMC** qalib müəyyən edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**

# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

### *qəzetinə abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (070) 244-17-34* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 564-63-45, (050) 214-04-05* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*4 aylıq*
**41,60 (qırx bir manat altmış qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*1 aylıq*
**10,40 (on manat qırx qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 23.08.2020-ci il tarixdə saat 23:00-dan etibarən bir neçə saat ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

## AMEA akademik Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu 400 litr maye heliumun satın alınması üzrə

### *açıq tender elan edir*

AMEA akademik Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu 400 litr maye heliumun satın alınması ilə bağlı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq açıq tender üsulu ilə elektron satınalma keçirir.

Maraqlanan şəxslər tenderdə iştirak etmək üçün institutun aşağıdakı hesabına 100 (bir yüz) manat məbləğində iştirak haqqı ödəməklə **www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalı (Portal) vasitəsilə tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər.

**Bank rekvizitləri:**
**Az 1025 , Bakı şəh., Xocalı pr., 30**
**VÖEN: 2000146301**
**Hesab №: AZ78CTRE00000000000004137901**
**Dövlət Xəzinədarlıq Agentliyi**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**M/h №: AZ41NABZ01360100000000003944**
**SWIFT BİK: CTREAZ22**
**Büdcə təsnifatının kodu - 142319**
**Büdcə səviyyəsinin kodu - 7**

Tenderdə iştirak etmək üçün iddiaçılar Portal vasitəsilə aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) surətləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

İddiaçılar iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **11 sentyabr 2020-ci il saat 12:00-a** qədər, tender təklifi və bank təminatını **21 sentyabr 2020-ci il saat 12:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **22 sentyabr 2020-ci il saat 12:00-da** açılacaqdır.

İddiaçılar tərəfindən tenderlə bağlı bütün sorğular və onlara dair izahatlar yalnız dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə həyata keçirilməlidir.

***Tender komissiyası***

## AMEA akademik Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu Elmi-tədqiqat işləri üzrə təcrübə və təcrübə-sınaq işlərinin satın alınması üzrə

### *açıq tender elan edir*

AMEA akademik Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu Elmi-tədqiqat işləri üzrə təcrübə və təcrübə-sınaq işlərinin satın alınması ilə bağlı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq açıq tender üsulu ilə elektron satınalma keçirir.

Maraqlanan şəxslər tenderdə iştirak etmək üçün institutun aşağıdakı hesabına 100 (bir yüz) manat məbləğində iştirak haqqı ödəməklə **www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalı (Portal) vasitəsilə tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər.

**Bank rekvizitləri:**
**Az 1025 , Bakı şəh., Xocalı pr., 30**
**VÖEN: 2000146301**
**Hesab №: AZ78CTRE00000000000004137901**
**Dövlət Xəzinədarlıq Agentliyi**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**M/h №: AZ41NABZ01360100000000003944**
**SWIFT BİK: CTREAZ22**
**Büdcə təsnifatının kodu - 142319**
**Büdcə səviyyəsinin kodu - 7**

Tenderdə iştirak etmək üçün iddiaçılar Portal vasitəsilə aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) surətləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

İddiaçılar iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **11 sentyabr 2020-ci il saat 10:00-a** qədər, tender təklifi və bank təminatını **21 sentyabr 2020-ci il saat 10:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **22 sentyabr 2020-ci il saat 10:00-da** açılacaqdır.

İddiaçılar tərəfindən tenderlə bağlı bütün sorğular və onlara dair izahatlar yalnız dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə həyata keçirilməlidir.

***Tender komissiyası***

### Düzəliş

Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinin "Azərbaycan" qəzetinin 30 iyul 2020-ci il tarixli sayının 7-ci səhifəsində dərc olunmuş "Abadlıq işlərinin satın alınması" ilə bağlı açıq tender elanında "İştirak haqqı - 200 manat" kimi oxunmalıdır.

## ALLAH RƏHMƏT ELƏSİN!

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Kredit Departamentinin direktor müavini Arif Səlimova anası

**LYUBOV XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 7278**
**Sifariş 1940**
**Qiyməti 40 qəpik**